RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 120 (8436) ÇƏRŞƏNBƏ, 24 iyun 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İLHAM ƏLİYEV heç bir çətinliyə baxmadan sosial infrastruktur layihələrinin icrasında qərarlıdır

Azərbaycan dövlətinin iqtisadi gücü, sosial nüfuzu ondadır ki, o, müstəqilliyini bərpa edəndən bəri dünyada baş verən böhranlara, çaxnaşmalara baxmayaraq, əhalinin həyat və güzəranının yaxşılaşdırılması istiqamətində başladığı heç bir işi, həyata keçirdiyi heç bir layihəni təxirə salmır. İndiki kimi, vaxt olub ki, iqtisadiyyatımızın əsas maliyyə mənbəyi olan neftin qiyməti kəskin ucuzlaşıb, amma Prezident İlham Əliyevin tapşırığı ilə əhalinin sosial müdafiəsi xərcləri nəinki azaldılıb, hətta əksinə, artırılıb.

İnfrastruktur layihələrindən isə danışmağa dəyməzdi. Ölkənin və xalqın mənafeyinə birbaşa xidmət edən hər hansı sosial layihənin maliyyə çatışmazlığı üzündən təxirə salınmasını yəqin ki, heç kim xatırlamır. Xatırlamır ona görə ki, sadəcə, belə hal olmayıb.

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev iyunun 22-də paytaxtın Xətai rayonu, Neopol küçəsində yeni yerüstü piyada keçidinin açılışında iştirak etmişdir. Öncə onu qeyd edək ki, bu keçidi sıradan bir obyekt kimi qəbul etmək insafsızlıq olardı. İlk baxışdan qonşu Gürcüstanın paytaxtında Kür çayının üstündə salınmış və az qala Tbilisinin yeni rəmzinə çevrilmiş körpünü xatırladan bu piyada keçidi yüksək zövqün hesabına fərqli görkəmə malikdir. Yeni texnologiyalar əsasında inşa edilən keçid Bakıda bu qəbildən olan obyektlərin tikintisi ilə bağlı aparılan kompleks işlərin tərkib hissəsi sayılsa da, qeyri-adi xarici görünüşü ilə daxili rahatlığının vəhdəti, funksionallığı hələ bir müddət onun nəinki yerləşdiyi ərazinin, hətta paytaxtın seçilən obyektləri sırasında qalacağından xəbər verir.

Keçidin ərazidəki Heydər Əliyev parkının yaxınlığında yerləşməsi də rəmzi xarakter daşıyır. Çünki Azərbaycanı, o cümlədən Bakını dövrünün təkrarsız tikililəri, bənzərsiz arxitektura abidələri ilə müasirləşdirmək Heydər Əliyevin çoxsaylı fəaliyyətinin ayrılmaz tərkib hissəsi olmuşdur. Sovet dövründən qalan və özünün adını daşıyan sarayı, müstəqillik dövründə maliyyə çətinliklərinə baxmayaraq, tikdirib ərsəyə gətirdiyi hava limanını xatırlamaq yetər ki, Ulu Öndərin bu sahədə qurub-yaratdıqları bir daha göz önündə canlansın. Elə Xətai rayonundakı park da 2000-ci ildə Heydər Əliyevin iştirakı ilə salınmışdır və o, indi ərazidə yaşayan əhalinin ən sevimli istirahət yerlərindəndir.

Amma keçid tikilənədək bu parka gəlib-getmək elə də asan deyildi. Xüsusən gur saatlarda nəqliyyatın sıxlığı üzündən enli küçələri keçmək risk tələb edirdi. Şükürlər olsun ki, bu problem də həll olundu. Necə deyərlər, Heydər Əliyevin saldığı parka İlham Əliyevin tikdirdiyi keçidlə indi rahat gedib-gəlmək mümkündür. Hətta bu zaman fiziki məhdudiyyətli insanlar da unudulmamışdır. Onlar üçün keçiddə 2 rahat lift quraşdırılmışdır. Yeri gəlmişkən, qeyd edək ki, keçidin inşası qısa müddətdə, özü də keyfiyyətlə tamamlanmışdır.

Amma bütün dünyanın başı COVID-19-la mübarizəyə qarışdığı bir vaxtda ölkəmizdə həyata keçirilən sosial infrastruktur layihələri qeyd etdiyimiz keçidlə tamamlanmır. Yəqin hamı müşahidə etmiş olar - elə gün yoxdur ki, dövlət başçısı hansısa yolun tikintisinə, hansısa ərazinin su ilə təminatının yaxşılaşdırılmasına, harada isə xəstəxananın, məktəbin, uşaq-tərbiyyə müəssisəsinin və bu kimi digər obyektlərin inşasına vəsait ayırmasın. Və bütün bunlar o vaxt edilir ki, Azərbaycanda da koronavirusun yayılması davam edir. Onun qarşısının alınması isə təkcə karantin tədbirləri yox, həm də külli miqdarda vəsait deməkdir. Bir tərəfdən də, məlum olduğu kimi, neftin qiymətinin ucuzlaşması üzündən gəlirlərimizin azalması. Bütün bunları fikirləşəndə, səmimi sözümüzdür, dövlətin gördüyü işlərə heyrət etməmək mümkün deyil. Mümkün deyil, ona görə ki, başqa ölkələr adi maska və əlcək almağa vəsait tapmadığı bir vaxtda Azərbaycanda sosial layihələr icra olunur - yeni yollar salınır, keçidlər, körpülər tikilir, səhiyyə, təhsil, mədəniyyət obyektləri, elektrik yarımstansiyaları istifadəyə verilir.

Ardı 2-ci səh.

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1168, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381 və 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; Azərbaycan Respublikasının 2020-ci il 17 mart tarixli 27-VIQD nömrəli, 30 mart tarixli 41-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 116.1-ci maddəyə “532,” rəqəmlərindən sonra “533-1,” rəqəmləri əlavə edilsin.
2. Aşağıdakı məzmunda 533-1-ci maddə əlavə edilsin:

**“Maddə 533-1. Kütləvi informasiya vasitələrində və reklam daşıyıcılarında dövlət dili normalarının pozulması**

Kütləvi informasiya vasitələrində və reklam daşıyıcılarında dövlət dili normalarının pozulmasına görə - fiziki şəxslər yüz manatdan iki yüz manatadək məbləğdə, vəzifəli şəxslər üç yüz manatdan dörd yüz manatadək məbləğdə, hüquqi şəxslər beş yüz manatdan min manatadək məbləğdə cərimə edilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 may 2020-ci il*

## Nazirlər Kabineti xüsusi karantin rejimi tətbiq olunan şəhər və rayonlarda birdəfəlik ödəmənin verilməsi haqqında qərar qəbul edib

Baş Nazir Əli Əsədov Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron, Yevlax, Cəlilabad, Masallı rayonları üzrə 190 manat məbləğində birdəfəlik ödəmənin verilməsi haqqında Qərar imzalayıb. Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetindən məlumat verilib.

Qərara görə, Nazirlər Kabinetinin 2020-ci il 7 aprel tarixli 127 nömrəli Qərarı ilə təsdiq edilmiş “Koronavirus (COVID-19) pandemiyası dövründə xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin verilməsi şərtləri və qaydası”na əsasən, Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron, Yevlax, Cəlilabad, Masallı rayonları üzrə 190 manat məbləğində birdəfəlik ödəməni almış şəxslərə müvafiq qaydalara uyğun olaraq təkrar yoxlama keçirildikdən sonra 190 manat məbləğində ödəmənin verilməsi birdəfəlik şəkildə həyata keçiriləcək.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Maliyyə Nazirliyi bu Qərardan irəli gələn məsələləri həll edəcək.

## Prezident İlham Əliyev növbəti dəfə erməni baş nazirinin yalanlarını ifşa etdi

### N.Paşinyanın siyasi dələduzluğunun axırı çatıb

Xəbər verildiyi kimi, iyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında sammiti keçirilib. Bu mötəbər tədbir yenidən ölkəmizə Ermənistanı işğalçı dövlət kimi ifşa etməyə imkan verdi. Sammitdə Prezident İlham Əliyev bir daha sübut etdi ki, dövlətimizin xarici siyasəti sülhsevərdir, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn prinsipləri əsasında həllinə tərəfdardır.

Prezident çıxışında Azərbaycanın Avropa və dünya üçün əhəmiyyətli olkə olduğunu tutarlı dəlillərlə sübut etdi. Dövlət başçısı vurğuladı ki, Azərbaycan Avropa İttifaqının 9 ölkəsi ilə strateji əməkdaşlıq haqqında sənəd imzaqlayıb. İki il bundan öncə Azərbaycanla Avropa İttifaqı arasında “Tərəfdaşlıq Prioritetləri” sənədi paraflanıb. Həmin sənəddə birmənalı olaraq hər iki tərəfin müstəqillik, suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsiplərinə sadiqliyi vurğulanıb. Hazırda Avropa İttifaqı ilə yeni tərəfdaşlıq haqqında sazişin imzalanması prosesi yekunlaşmaq üzrədir. Burada beynəlxalq hüquqa söykənən prinsiplər üstün tutulacaq. Deməli, ermənilərin hansı təxribata əl atmasından asılı olmayaraq, bu mühüm sənəddə bir daha Azərbaycanın ərazi bütövlüyü əsas götürüləcək.

Ardı 3-cü səh.




## Azərbaycanın 19-cu «ASAN»ı

Son dövrlərdə inkişafın və yüksəlişin Azərbaycan nümunələrindən biri hökumət-vətəndaş münasibətlərində, daha dəqiq desək, dövlət orqanlarının əhaliyə göstərdikləri xidmət sahələrində çevik mexanizmlərin tətbiqi, bürokratik əngəllərin aradan qaldırılmasıdır. Bu baxımdan dövlət idarəçiliyi islahatlarının bir hissəsi kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə respublikamızda 2012-ci ildən yaradılmasına başlanılan “ASAN xidmət” mərkəzləri olduqca mütərəqqi və dünyada maraqla qarşılanan vətəndaşlara ictimai xidmət modelidir.

### Milli brendimiz

Əsas prinsipləri operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət, etik davranış qaydalarına nəzarət və rahatlıq olan “ASAN xidmət” və “ASAN Kommunal” mərkəzləri öz fəaliyyətini yüksək standartlar çərçivəsində quran və inkişaf etdirən dövlət orqanı qismində “vahid məkan” prinsipinə əsaslanır.

Ardı 3-cü səh.

## Ermənistan Paşinyanı uğursuzluqda ittiham edir

### Hakimiyyət Qaqik Tsarukyanın həbsində israrlıdır

Ermənistanda ümumi yurisdiksiya məhkəməsi “Çiçəklənən Ermənistan” fraksiyası və eyni adlı partiyanın lideri Qaqik Tsarukyanın həbs edilməsi haqqında ölkənin baş prokurorluğunun vəsatətini təmin etməyib.

Baş prokuror Artur Davtyan parlamentə müraciətində “Milli Təhlükəsizlik Xidməti tərəfindən “Firavan Ermənistan” Partiyasının rəhbər heyəti və bir sıra üzvlərinin “mütəşəkkil rüşvət paylama aksiyalarına” cəlb edilməsi faktlarının aşkar edildiyini bildirib. Amma məhkəmə bunu rədd edib. Prokurorluq məhkəmə qərarının mübahisələndiriləcəyini açıqlayıb.

Görünən budur ki, baş nazir Nikol Paşinyan Tsarukyanı həbs etməkdə israrlıdır. Hətta Ermənistan Milli Təhlükəsizlik Xidməti “Çiçəklənən Ermənistan” Partiyasinin lideri haqqında seçilən qətimkan tədbiri haqqında qərardan apelyasiya şikayəti verib. Bundan əvvəl isə Ermənistanın birinci instansiya məhkəməsi Tsarukyan barədə həbs qətimkan tədbiri seçməkdən imtina etmişdi. Amma Paşinyanın göstərişi ilə Milli Təhlükəsizlik Xidməti Tsarukyanı tutmaqda israrlıdır. Qurum Tsarukyan barədə məhkəməyə bir yox, bir neçə fakt və ya informasiya təqdim etdiyini bildirib.

Milli Təhlükəsizlik Xidməti “Çiçəklənən Ermənistan” Partiyasının aktivistlərinin mənzillərində 80-dən çox axtarış apardığını və burada seçicilərin ələ alınmasını təsdiq edən faktlar aşkarladıqlarını bildirib. Qeyd edək ki, Tsarukyan 2017-ci ildə seçicilərin səsini pulla almaqda və dövlətə 62 milyon dollar ziyan vurmaqda ittiham edilir. Amma onun ətrafında baş verənlər artıq Rusiyanı daha ciddi şəkildə narazı salır.

Ardı 5-ci səh.




## Qlobal pandemiya ilə mübarizə davam edir

Yarım ildir koronavirus, COVID-19 dünyanın altını-üstünə çevirib. Demək olar ki, bütün sahələri iflic edib və o həddə çatıb ki, neçə-neçə illər keçsə belə, bu virusun fəsadlarını yer üzündən tamamilə silmək mümkün olmayacaq.

Hazırda tibb elmi gecə-gündüz infeksiyaya qarşı vaksin axtarışındadır, bununla bağlı müəyyən ümidverici nəticələr əldə edildiyi açıqlansa da, hələlik peyvəndin yaxın zamanlarda tətbiqinin gözlənilmədiyi vurğulanır.

Göründüyü kimi, artıq COVID-19 həyatımızın bir parçasına çevrilib və biz onunla yaşamağa öyrəşməliyik. Özü də bu virusun diktə etdiyi şərtlərlə: sosial izolyasiyanı gözləməklə, maska taxmaqla, şəxsi gigiyena qaydalarına əməl etməklə.

Dünyanın koronavirusla bağlı hazırkı mənzərəsinə nəzər saldıqda görürük ki, vəziyyət heç də ürəkaçan deyil. Hətta koronavirus üzərində tam qələbə elan edən ölkələr indi ikinci dalğa ilə üzləşiblər.

Ardı 4-cü səh.

# Dövlət qulluqçularının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Abasova Adilə Ziyat qızı
Ağayev Aydın Mirzəli oğlu
Quliyev Təlatüm Əliövsət oğlu

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Fərəcov Fazil Salman oğlu
Hacıyev Valeh Tofiq oğlu
Sofiyeva Aynur Məmmədiyyə qızı

**"Tərəqqi" medalı ilə**

Abbasəliyev Xaliddin Bahəddin oğlu
Babayev Malik Balakişi oğlu
Bəhrəmov İbadət Qara oğlu
Cabbarov Firidun Məstan oğlu
Camalov Elvin Veys oğlu
Cəfərova Əntiqə Məhəmmədəli qızı
Dadaşov Orxan Natiq oğlu
Ələsgərov Malik Hümbət oğlu
Əliverdiyev Telman Əli oğlu
Əliyev Mahir Nəcəf oğlu
Əliyeva Sevinc Tərlan qızı
Əsgərov Bəxtiyar Səyyad oğlu
Hacızadə Billurə Surət qızı
İsmayılov Məmməd Əkbər oğlu
Kuzikevxaşvili Liuza Vasoyevna
Qubadov Miribadulla Mirtarverdi oğlu
Quluyev Mərdəli Behbud oğlu
Qvaladze Otari Rafaelyeviç
Lazımov Elman Telman oğlu
Mahmudova Gülnaz Fərhad qızı
Maksudov Şahin İsbat oğlu
Mehdiyeva Sonaxanım Muxtar qızı
Məsimova Yaqut Şixnəbi qızı
Muradov Səməndər Bəfədər oğlu
Nağıyeva Xuraman Məmməd qızı
Nəbiyev Nazim İbrahim oğlu
Nəcəfov İlqar Məhəmməd oğlu
Rəsulov Vaqif Nəcəfalı oğlu
Rüstəmov Şakir Bəhram oğlu
Rüstəmov Valeh İsfəndiyar oğlu
Saramanov Ramazan Əmrullah oğlu
Səttarova Məlahət İsmət qızı
Sultanova Ruqiyyət Atey qızı
Süleymanov Məhəmmədəli Bilal oğlu
Süleymanov Məmməd Müzəffər oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Abasova Cəmilə Rüstəm qızı
Abasova Rədifə Əvəz qızı
Abbasov Fariz Yaqub oğlu
Abbasov Mahir Hüseyn oğlu
Abbasov Orxan Vilayət oğlu
Abbasov Rəşad Soltan oğlu
Abbasova Könül İmamverdi qızı
Abbasova Zərəngiz Səməd qızı
Abdinov Orxan Rza oğlu
Abdullayev Arzu Piriş oğlu
Abdullayev Samir Ağasəf oğlu
Abdullayeva Firuzə Əsəd qızı
Abdullayeva Xuraman Fərəməz qızı
Abdullayeva Qətibə Binnət qızı
Abuşov Tural İntiqam oğlu
Ağayev Kərim Ramazan oğlu
Ağayev Ramin Şıxəli oğlu
Ağayev Samid Tofiq oğlu
Axundova Sevda Rəvan qızı
Aslanov Qorxmaz İldırım oğlu
Ataşov Rövşən Bəyalı oğlu
Babayev Rəşadət Əliağa oğlu
Babayev Söhrab Balabəy oğlu
Babayeva Gülnarə Hüseyn Bala qızı
Babayeva Zülfiyyə Məhəmməd qızı
Bağırova Sədaqət Muxtar qızı
Balabəyov Ənvər İbrahim oğlu
Bayramova Nərmin Ernest qızı
Bəşirov Xəzər Zabit oğlu
Cəbiyeva Kəmalə Mərdanəli qızı
Cəfərova Qumru Vaqif qızı
Dadaşov Məmmədhüseyn Xanhüseyn oğlu
Eyvazov Fuad Heydər oğlu
Əbdulhəsənov Mütəllim Əbdüləziz oğlu
Əhmədov Xanoğlan Telman oğlu
Əhmədov Rahab Həsənağa oğlu
Əhmədov Sabir Ağəhməd oğlu
Əhmədov Şahin İsgəndər oğlu
Ələsgərov Sahib İbrahim oğlu
Əliyev Arif Musa oğlu
Əliyev Asif Nürəddin oğlu
Əliyev Əli Əlisurət oğlu
Əliyev Fərid Ruslan oğlu
Əliyev İlkin Böyükağa oğlu
Əliyev Qabil Həmzə oğlu
Əliyev Pərviz Əbilfəz oğlu
Əliyev Rasim Adil oğlu
Əliyev Sabir Qələndər oğlu
Əliyev Sadiq Cabir oğlu
Əliyev Tural Rəfail oğlu
Əliyev Zaur Şaitdin oğlu
Əliyeva Aypara Məmməd qızı
Əmircanova Ümbül Cəfər qızı
Əsədova Ruqiyyə Rafiq qızı
Əsgərov Tacəddin Kamil oğlu
Əsgərova Nəsibə Mütəllib qızı
Əzizov Ataman Əfqar oğlu
Əzizov Əziz Qərib oğlu
Əzizov Vahid Əzizağa oğlu
Hacıyev Ələkbər Qiyas oğlu
Hacıyev İqbal İnqilab oğlu
Heydərov Yusif Vaqif oğlu
Həmidov Şəfayət Mübariz oğlu
Həsənov Elşad Rauf oğlu
Həsənov Ələsgər Bəndalı oğlu
Həsənov İlham Sədrəddin oğlu
Həsənov İmran Elman oğlu
Hüseynov Absalam Zahid oğlu
Hüseynov Babək Azər oğlu
Hüseynov Xəyyam Sabir oğlu
Hüseynov Lazım Fərzalı oğlu
Hüseynova Mehriban Samid qızı
Hüseynova Nəcibə Həsənağa qızı
Hüseynzadə Orxan Rüfət oğlu
Xudaquliyev Əfqan Ağaqulu oğlu
İbrahimov Hafiz Sarı oğlu
İbrahimov Tariyel Daim oğlu
İmanov Azər Laçın oğlu
İmanov Heybət Rahil oğlu
İsmayılov Anar İsmayıl oğlu
İsmayılova Samirə Burcalı qızı
İsrafilov Anar Rasim oğlu
Kərimov Əsəd Əhməd oğlu
Kərimov Musa Camal oğlu
Kərimova Leyla Sabir qızı
Qafarov Əbülfəz Rza oğlu
Qarabağlı Emin Arif oğlu
Qasımov Azər Qərib oğlu
Qasımov Bəxtiyar Qasım oğlu
Qəhrəmanov Ceyhun Əliyar oğlu
Qəhrəmanov Ramiz Məzahim oğlu
Qəhrəmanova Cəmilə Razin qızı
Qəmbərov Elşən Vahid oğlu
Qılıcov Nizaməddin İmran oğlu
Quliyev Emin Rzaqulu oğlu
Quliyev Rəşad Şakir oğlu
Quliyev Yunis Bəbir oğlu
Quliyeva Leyla Anatolyevna
Quliyeva Nigar Eldar qızı
Qulu Zadə Şahrun Orxan qızı
Mahmudov Həsən Məmməd oğlu
Mayılov Fuad İlham oğlu
Mayılova Mehriban Məmmədağa qızı
Mehdixanlı Cövdət Tofiq oğlu
Mehdiyeva Aytac Arif qızı
Məcidli Vüqar Sabir oğlu
Məhərrəmov Əbülfət Əjdər oğlu
Məhərrəmova Şəfa Fikrət qızı
Məlikova Rəna Mansur qızı
Məlikova Sədaqət Emin qızı
Məmişov Himalay Qabil oğlu
Məmmədli Natiq Yaqub oğlu
Məmmədov Hüseynxan Paşa oğlu
Məmmədov Məhərrəm Məmməd oğlu
Məmmədov Muxtar Məmməd oğlu
Məmmədov Səfail Mirzağa oğlu
Məmmədov Tural Xəlil oğlu
Məmmədova Hökumə İdris qızı
Mikayıllı Həbib Rasim oğlu
Mirzəyev Vüqar Balaxan oğlu
Mirzəyeva Mehriban Adil qızı
Muradov Eldar Yaralı oğlu
Muradova Rəna Əlirza qızı
Musayev Cəmil Əliheybət oğlu
Musayev Rizvan Kamal oğlu
Musayev Səbuhi Rahib oğlu
Mustafayeva Gülarə Əli qızı
Mürsəliyev Mirqulu Mursaqulu oğlu
Mütəllimov Rövşən Əlyusif oğlu
Nağıyev Azad Sabir oğlu
Namazov Mehman Fərman oğlu
Nəbiyev Hikmət Sədi oğlu
Nəbiyev Ramil Aslan oğlu
Nəcəfov Qulu Nəcəfqulu oğlu
Nəcəfova Mədinə Ənvər qızı
Nəzərov Mədət Feyruz oğlu
Nuriyev Vəli Talıb oğlu
Ovçiyev Rizvan Ziyəddin oğlu
Paşayev Elvin Nazim oğlu
Pirməmmədov İlqar Zakir oğlu
Rəhimova Göyçək Aydın qızı
Rəhmanov Fəxri Rəşid oğlu
Rəsulova Səmayə Məmmədağa qızı
Rüstəmova İlhamə Kazbek qızı
Rzayev Mahir Tahir oğlu
Rzayev Nuğay Cəlil oğlu
Sadıqov Elmir Kərəm oğlu
Sadıqov Yusif Sadıq oğlu
Sadıqova Mənzərə Hüseyn qızı
Salahova Könül Rüstəm qızı
Salamov Təbriz Əsabəli oğlu
Salmanov Fərid Əli oğlu
Səfərova Səkinə-Xanım Tofiq qızı
Səlimov Şakir Yaşar oğlu
Səmədova Anaxanım Qüdrət qızı
Süleymanov Rövşən Efsir oğlu
Süleymanov Soltan Şəhmir oğlu
Şabanova Nərminə Nəcəf qızı
Şahbazbəyova Zemfira Nadir qızı
Şəkərəliyev Teymur Akif oğlu
Şərifov Əli Qara oğlu
Şərifov Zahid Hümmət oğlu
Şıxəliyev Ceyhun Yavər oğlu
Şirinov Rasim Savalan oğlu
Şükürova Nərgiz Çingiz qızı
Tağıyeva İlqanə İbrahim qızı
Talıbzadə Cəmilə Maksim qızı
Vəliyeva Vüsalə Səyyad qızı
Zahirli Elşən Həsən oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyun 2020-ci il*

# İlham Əliyev heç bir çətinliyə baxmadan sosial infrastruktur layihələrinin icrasında qərarlıdır



*Əvvəli 1-ci səh.*



Elə sözügedən keçidin açılışı zamanı Prezident İlham Əliyevə məlumat verildi ki, Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 7-ci kilometrliyində, Bakı Beynəlxalq Avtovoğzal Kompleksi ilə metronun "Avtovağzal" stansiyası arasındakı ərazidə əsas yolun hərəkət hissəsi genişləndirilərək zolaqların sayı 4-ə çatdırılmışdır. Bundan əlavə, paytaxtın şimal girişində günün gur saatlarında yaşanan tıxacların aradan qaldırılması üçün icra edilən layihə çərçivəsində "20 Yanvar" dairəsində yolun hərəkət hissəsi 10 metr qədər, magistral yolun Bakı Beynəlxalq Avtovağzal Kompleksinin qarşısından keçən hissəsi isə hər iki istiqamət üzrə bir hərəkət zolağı enində genişləndirilmişdir.

O ki qaldı paytaxtdan əvvəl bu sahədə, konkret desək, piyada keçidlərinin salınmasına, təkcə 2018-2019-cu illərdə paytaxtda və şəhərarası yollarda , magistrallarda 7 yerüstü və yeraltı keçid istifadəyə verilmişdir. Cari ilin əvvəlindən isə Bakıda 3 piyada keçidi (Heydər Əliyev prospekti ilə Zəki Məmmədov, Moskva prospekti ilə 20 Yanvar küçələrinin kəsişmələrində və sonuncu Neapol küçəsində) tikilmişdir. Yaxın vaxtlarda Azadlıq prospekti, Qala-Pirallahı, Mərdəkan-Buzovna, Bakı-Sumqayıt yollarında və başqa ərazilərdə daha bir neçə belə obyektin istifadəyə verilməsi gözlənilir.

Göründüyü kimi, o iş ki, əhalinin rahatlığına və təhlükəsizliyinə, eləcə də ölkənin yol infrastrukturunun müasirləşməsinə xidmət edir, dövlət həmin sahəyə maliyyə ayırmaqdan çəkinmir, hətta pandemiya kimi dünyəvi bəlanın fəsadlarını yaşasa da.

***Raqif MƏMMƏDLİ,***
***"Azərbaycan"***

# "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 8 may tarixli 94-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 8 may tarixli 94-VIQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 may tarixli 1013 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na aşağıdakı məzmunda 60-1-ci hissə əlavə edilsin:

"60-1. Məcəllənin 533-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

60-1.1. teleradio yayımlarına münasibətdə inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurası adından - bu Siyahının 29.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

60-1.2. digər kütləvi informasiya vasitələrinə münasibətdə inzibati xətanı aşkar etmiş Azərbaycan Mətbuat Şurası adından - bu Siyahının 31.2.2-ci yarımbəndində nəzərdə tutulan vəzifəli şəxslər;

60-1.3. açıq məkanda reklam daşıyıcılarına münasibətdə:

60-1.3.1. "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının və Bakı şəhərində yerləşən Dənizkənarı Milli Parkın ərazisində törədilən inzibati xətalar istisna olmaqla, digər inzibati xətalara münasibətdə inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi adından - bu Siyahının 31-2.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

60-1.3.2. "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının ərazisində törədilən inzibati xətalara münasibətdə inzibati xətanı aşkar etmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi adından - bu Siyahının 31-2.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

60-1.3.3. Bakı şəhərində yerləşən Dənizkənarı Milli Parkın ərazisində törədilən inzibati xətalara münasibətdə inzibati xətanı aşkar etmiş Dənizkənarı Bulvar İdarəsi adından - bu Siyahının 31-2.3-cü bəndində nəzərdə tutulan vəzifəli şəxslər.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 533-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi adından protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslər barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyun 2020-ci il*

# Dövlət qulluğuna qəbul edilmiş əməkdaşların videokonfrans formatında andiçmə mərasimi olub



Prezident İlham Əliyevin tapşırıqlarına əsasən, əmək, məşğulluq, sosial müdafiə sahələrində aparılan islahatlar bu sahələr üzrə idarəçiliyin və əhaliyə xidmətlərin innovativ yanaşmalar üzərində qurulması və keyfiyyətinin yüksəldilməsinə, optimal və şəffaf fəaliyyət mexanizmlərinin tətbiqinə xidmət edir. Ona görə də bu sahələr üzrə dövlət qulluğunun inzibati vəzifələrinə kadrların qəbulu zamanı dövlət qulluğu ilə bağlı biliklərlə bərabər, eyni zamanda müasir bilik və bacarıqlara yiyələnmiş, həmçinin məsuliyyət hissinə və mənəvi keyfiyyətlərə malik kadrlara üstünlük verilir.

Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev nazirlik sistemində dövlət qulluğuna yeni qəbul edilmiş əməkdaşların videokonfrans formatında təşkil olunan andiçmə mərasimində deyib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, tədbir iştirakçılarını 23 İyun - Dövlət qulluqçularının peşə bayramı günü münasibətilə təbrik edən S.Babayev hazırda nazirliyin struktur bölmələrində 4900-dək dövlət qulluqçusunun çalışdığını qeyd edib. O, dövlət qulluğunda səmərəli fəaliyyət göstərən əməkdaşların əməyinin Prezident İlham Əliyev tərəfindən daim yüksək dəyərləndirildiyini vurğulayıb. Dövlət başçısının 2020-ci il 23 iyun tarixli Sərəncamı ilə dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə təltif edilənlər arasında nazirliyin də əməkdaşlarının olduğu vurğulanıb və buna görə Azərbaycan Prezidentinə minnətdarlıq ifadə olunub.

S.Babayev qeyd edib ki, nazirlik sistemində dövlət qulluğunun inzibati vəzifələri üzrə vakant yerlərə işə qəbul prosesi Dövlət İmtahan Mərkəzi ilə əməkdaşlıq şəraitində həyata keçirilir. Müvafiq müsabiqə və müsahibə mərhələlərini uğurla keçmiş namizədlər bu vəzifələrə təyin olunurlar. Hazırda da yeni işə qəbul olunan bir qrup əməkdaşın andiçmə mərasimi keçirilir. Dövlət başçısının bəyan etdiyi "Dövlət məmuru xalqın xidmətçisidir", "Dövlət məmuru cəmiyyətdə hər bir vətəndaş üçün nümunə olmalıdır" prinsipləri bu gün dövlət qulluğuna qəbul olunan kadrlar üçün başlıca fəaliyyət prinsipləri olmalıdır. Onlar bu prinsiplərə sadiq fəaliyyət göstərməklə sosial sahədə islahatlara töhfə verməyə çalışmalıdırlar.

İşə qəbul olunmuş əməkdaşların səmərəli fəaliyyətinin stimullaşdırılması, onların fasiləsiz təhsil almalarının təmin olunması istiqamətində də işlərin görüldüyünü deyən nazir yeni işə qəbul olunan əməkdaşları təbrik edib, onlara uğurlar arzulayıb.

Nazirliyin Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri Nərmin Bayramova nazirlik sistemində dövlət qulluğunun inzibati vəzifələri üzrə vakant yerlərə işə qəbul prosesinin nəticələrinə dair məlumat verib.

Gənc əməkdaşlar Azərbaycan Respublikasının dövlət bayrağı altında Azərbaycan Respublikasının Konstitusiyasına əl basaraq "Dövlət qulluğu haqqında" Qanuna uyğun olaraq, Azərbaycan Respublikasına sadiq olacaqlarına, Azərbaycan Respublikası Konstitusiyasına dönmədən əməl edəcəklərinə, dövlət sirrini və xidməti sirri qoruyacaqlarına, dövlət qulluğunun verdiyi hüquqları və üzərlərinə qoyduğu vəzifələri qərəzsiz, vicdanla, ancaq qanunauyğun surətdə, var gücləri ilə və vətənin mənafeyi naminə həyata keçirəcəklərinə and içib, andın mətnini imzalayıblar.

Sonra Dövlət himni səslənib.

Dövlət qulluğuna işə yeni qəbul edilən şəxslər onlara göstərilən inam və etimadı layiqli səviyyədə doğruldacaqlarını bildiriblər.

# 419 hərbi qulluqçu yeni mənzillərlə təmin olunacaq

İyunun 23-də Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" 2011-ci il 28 dekabr tarixli Fərmanı ilə yaradılmış komissiyanın növbəti iclası keçirilib.

Maliyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, həmin fərman Azərbaycan Silahlı Qüvvələrində 20 təqvim ili və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçuların dövlət vəsaiti hesabına alınmış mənzillərlə təmin olunmasını nəzərdə tutur.



Komissiyanın sədri, Maliyyə naziri Samir Şərifov iclası açaraq bildirib ki, hərbi qulluqçuların mənzil təminatı Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və nəzarətindədir. Bu tədbirlərin həyata keçirilməsi ilə bağlı hər il dövlət büdcəsinin imkanları daxilində müvafiq məbləğdə vəsait ayrılır.

Komissiyanın iclasında hazırda mənzil növbəsində olan 666 nəfər hərbi qulluqçudan 419-nun Bakı və Naxçıvan şəhərlərində tam təmirli mənzillərlə təmin olunması və bu məqsədlərə 2020-ci ilin dövlət büdcəsində ayrılmış 30,1 milyon manat vəsaitin yönəldilməsi barədə qərarlar qəbul edilib.

Beləliklə, Azərbaycan Respublikası Prezidentinin fərmanının icrası olaraq bu günədək dövlət vəsaiti hesabına 20 il və daha çox xidmət etmiş 2140 nəfər hərbi qulluqçu Bakıda və respublikanın müxtəlif regionlarında mənzillərlə təmin olunub.

# İyun ayı üzrə bütün müavinət, təqaüd və kompensasiyalar ödənilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu tərəfindən bu ay üzrə bütün müavinət, təqaüd və kompensasiyaların ödənişi artıq yekunlaşıb. Həmin sosial təminat növləri üzrə vəsaitlər müvafiq kateqoriyalardan olan şəxslərin hesablarına köçürülüb.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, bundan əvvəl - iyunun 15-dək isə cari ayın bütün pensiyalarının ödənişi təmin olunub.

Gələn həftə isə bu ay üzrə ünvanlı dövlət sosial yardımlarının ödənişi nəzərdə tutulub.

# Prezident İlham Əliyev növbəti dəfə erməni baş nazirinin yalanlarını ifşa etdi

## N.Paşinyanın siyasi dələduzluğunun sonu çatıb

Əvvəli 1-ci səh.

Beləliklə, imzalanacaq sənəd Dağlıq Qarabağ münaqişəsinin həllində N.Paşinyanın "nala-mıxa vurma" siyasətinin mənasız olduğunu bir daha göstərəcək.

Dövlət başçısı sammitdəki çıxışı zamanı ölkəmizin Avropa ilə sıx əməkdaşlıqda maraqlı olduğunu vurğuladı. Bildirdi ki, Azərbaycan Avropa İttifaqının enerji təhlükəsizliyini təmin etmək üçün 3500 klometirlik "Cənub qaz dəhlizi"nin tikintisinin təşəbbüskarı olub, həmçinin onu maliyyələşdirib.

Qeyd edək ki, bu gün Azərbaycan Cənubi Qafqazın iqtisadiyyatının 80 faizinə sahibdir, qalan 20 faizdə Gürcüstanın payı Ermənistanınkından daha çoxdur. Beləliklə, məlum olur ki, Avropa regionunda ən kasıb, daha dəqiq desək, yaşamaq üçün başqalarına əl açan ölkə Ermənistandır. Erməni milləti hər fürsətdən yararlanıb dövlət səviyyəsində dilənçilik etməyi ustalıqla bacarır. Məsələn, Azərbaycan dövləti öz xalqını koronavirus pandemiyasından qorumaqla yanaşı, dünyanın 29 dövlətinə humanitar yardım göndərib. Ermənistan koronavirus pandemiyasından istifadə edərək Avropa İttifaqından 92 milyon avro həcmində yardım alıb. Paşinyan da yəqin ki, sələfləri kimi bu yardımı mənimsəyəcək. Çünki onlar beynəlxalq təşkilatların göndərdiyi humanitar yardımları mənimsəməyə adət ediblər. Şübhəsiz, alınan növbəti yardımı da erməni baş naziri və onun tərəfdarları şəxsi məqsədləri üçün istifadə edəcəklər. Bu üzdən də Paşinyana növbəti dəfə lənət oxunacaq.

Avropa dünyanın inkişaf etmiş zəngin qitəsidir. Burada yerləşən dövlətlər xarici siyasətdə faydalı və qarşılıqlı əməkdaşlığa üstünlük verirlər. Azərbaycan da dinamik inkişaf edən, təbii sərvətlərlə zəngin ölkə kimi Avropa İttifaqı üçün cəlbedicidir. Bu səbəbdən də Aİ ölkəmizlə siyasi və iqtisadi əməkdaşlığa mühüm əhəmiyyət verir. Ölkəmizin iqtisadiyyatı son 16 ildə 3 dəfə artıb, yoxsulluq səviyyəsi 49 faizdən 5 faizə enib. Xarici ticarətimizin 50 faizi bu qitənin dövlətləri ilə aparılır. Üstəlik, tədricən Azərbaycan Avropanın enerji təminatında mühüm ölkəyə çevrilir. Ermənistan isə bunun qarşılığında siyasi oyunbazlıqdan savayı ortaya heç nə qoya bilmir.

Ölkəmiz üçün bu forumda əsas məsələ milli əhəmiyyət kəsb edən Dağlıq Qarabağ həqiqətlərini bir daha Avropa miqyasında təbliğ etmək idi. Dövlət başçısı forumda münaqişənin yalnız beynəlxalq hüququn prinsipləri çərçivəsində həllinin mümkün olduğunu bildirdi. Vurğuladı ki, BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən 4 qətnamədə Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş bütün ərazilərindən qeyd-şərtsiz cıxarılması tələb olunur. Bununla yanaşı, ATƏT, Qoşulmama Hərəkatı, NATO, Avropa Parlamenti və digər beynəlxalq təşkilatlar da Ermənistandan işğala son qoymasını tələb edir. Buna baxmayaraq, Ermənistan öz işğalçılıq siyasətini davam etdirir.

Ermənistanın baş naziri müxtəlif siyasi manevrlər edib işğal faktını gizlətməyə, digər tərəfdən, işğala haqq qazandırmağa çalışırdı. Onun bu siyasi təlxəkliyi də ifşa olundu. Prezident İlham Əliyev növbəti dəfə Paşinyanın yalanlarını ifşa edərək demişdir: "Çıxışımda dediklərim beynəlxalq təşkilatların qətnamələrinə əsaslanan tarixi həqiqətdir. Birincisi, bu, hər kəsə bəlli olan bir faktdır ki, Ermənistan Azərbaycanın ərazisini işğal edib. İkincisi isə, Ermənistanın baş nazirinə irqçilik haqqında danışmağı məsləhət görməzdim, çünki erməni terrorçuları dünyaca məşhurdurlar. Parisin Orli hava limanında terror hadisəsi törədən Karapetyan soyadlı şəxs sonradan Ermənistana ekstradisiya edilib və Ermənistan prezidenti tərəfindən əfv olunub. Məhz buna görə belə məsələlər ətrafında müzakirə gedəndə ona sakit oturmağı tövsiyə edərdim".

Paşinyan çıxışı zamanı Ermənistanın üz qarası olan işğalçı simasını gizlətmək üçün siyasətçiyə yaraşmayan yalan və saxta "fakt"lardan istifadə etməyə çalışdı. Sadə ermənilərə qısa müddətdə cənnət yaradacağını vəd edib hakimyyətə gələn erməni baş naziri elə bilirdi ki, bu yalanları ilə "qoca" qitənin oturuşmuş siyasətçilərini aldada biləcək. O, bütün dünyada rəsmi şəkildə qəbul edilən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi əvəzinə "Artsax" ifadəsini işlətməklə növbəti dəfə gülüş hədəfinə cevrildi. Forum zamanı Azərbaycan Prezidentinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi həqiqətləri bir daha vurğulaması erməni baş nazirini mat vəziyyətə qoydu. Birinci dəfə deyil ki, Prezident İlham Əliyevlə olan debat və görüşlərdə Paşinyan gülünc vəziyyətinə düşür. Münxen Təhlükəsizlik konfransında, MDB dövlət başçılarının sammitlərində Paşinyanın səviyyəsizliyi, siyasi riyakarlığı, utanmadan yalan danışmağı tədbir iştirakcılarında ikrah doğurur.

Hər kəs bilir ki, Ermənistanda Paşinyanın siyasi reytinqi gündən-günə aşağı düşür. Artıq onun istefasını təkçə sosial problemlər məngənəsində sıxılan sadə ermənilər deyil, siyasi rəqibləri də səsləndirir. Hakimiyyətə gəlmək üçün verdiyi vədlərdən heç birinə əməl etmədiyinə görə siyasi apponentləri tərəfindən istefaya getməsi tələb olunur. Hazırda Ermənistanda Paşinyanın yarıtmaz siyasəti üzündən sosial-iqtisadi vəziyyət gündən-günə pisləşir, insanlar sadə məişət ehtiyaclarını ödəyə bilmədikləri üçün kütləvi şəkildə ölkəni tərk edirlər. İndi Ermənistan cəmiyyətində bir gərginlik və ümidsizlik hökm sürür. Paşinyan xalqa verdiyi yalan vədləri yerinə yetirə bilmir. Buna görə hədəfdən yayınmaq üçün "əcinə" ovuna çıxaraq siyasi rəqiblərini həbs etməklə məşğuldur.

Dünyada və Ermənistanda siyasi iflasa uğrayan erməni baş nazirin karyerasının sonunun çatdığı aşkar görünür. O, erməni xalqına Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll edəcəyi, ölkə iqtisadiyyatını yüksəldəcəyi, əhalinin bütün sosial problemlərini həll edəcəyi barədə verdiyi vədlərin heç birini yerinə yetirməyib. Artıq erməni cəmiyyəti Paşinyanın iç üzünü görüb, yalançı və saxtakar olduğuna əmindir. Bu səbəbdən Paşinyanın siyasi dələduzluğunun ona baha başa gələcəyini hər kəs, o cümlədən özü də yaxşı anlayır.

**_Rüstəm KAMAL,_**
**_"Azərbaycan"_**

## Mühəndis Qoşunlarının yeni infrastruktur obyekti istifadəyə verilib











Müdafiə nazirinin maddi-texniki təminat üzrə müavini, general-leytenant Fuad Məmmədov Mühəndis Qoşunlarının yeni inşa edilmiş mühəndis infrastrukturunun açılışında iştirak edib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, general-leytenant F.Məmmədov hərbi hissədə yeni inşa edilmiş əsgər yataqxanası, yeməkxana, tibb məntəqəsi, hamam-camaşırxana kompleksi, eləcə də digər xidməti və inzibati obyektlərə baxış keçirib.

Mühəndis qoşunlarının hissə və bölmələrində döyüş hazırlığının təşkili və aparılması, mühəndis-istehkam bölmələrinin taktiki-xüsusi, xüsusi və texniki hazırlığının yüksək səviyyədə saxlanılması üçün yeni mühəndis şəhərciyi və mühəndis texnikalarının sürücülük sahəsi də hazırlanaraq istifadəyə verilib.

Qeyd olunub ki, yaradılan şərait Mühəndis Qoşunlarının hissə və bölmələrinin döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasına müsbət təsir göstərəcək.

## Hərbi Hava Qüvvələrinin cəbhəboyu zonada yerləşən növbəti hərbi hissəsinin açılış mərasimi keçirilib





Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin (HHQ) komandanı, general-leytenant Ramiz Tahirov HHQ-nin cəbhəboyu zonada yerləşən yeni inşa olunan növbəti hərbi hissəsinin açılışı mərasimində iştirak edib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, şəxsi heyət üçün yaradılan şəraitlə tanış olan general-leytenant R.Tahirov ərazidəki qərargah binası, əsgər yataqxanası, tibb məntəqəsi, yeməkxana, sinif otaqları, ərzaq və əşya anbarı, qazanxana, eləcə də digər xidməti və inzibati obyektlərə baxış keçirib. Bildirilib ki, yeni hərbi hissədə yaradılan şərait HHQ-nin döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasına müsbət təsir göstərəcək və döyüş növbətçiliyinin daha da keyfiyyətli aparılmasını təmin edəcək.

## Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində iriçaplı silahlardan da istifadə etməklə atəşkəs rejimini 27 dəfə pozub. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

# Azərbaycanın 19-cu «ASAN»ı













Əvvəli 1-ci səh.

Bütün bunlardan çıxış edərək "ASAN xidmət" modeli qısa müddətdə Azərbaycanda ictimai xidmət sahəsində dönüş yaratdı. "ASAN" ölkə əhalisi arasında o qədər populyarlaşdı ki, bunun davamı olaraq belə xidmət mərkəzlərinin Azərbaycanın regionlarında da yaradılmasına başlanıldı, həmçinin göstərilən xidmətlərin sayı və növü artırıldı.

Hazırda respublikamızda 19 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Onlardan 5-i Bakıda, 14-ü isə regional mərkəzlər olmaqla, Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Quba, Masallı, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz və Ağcabədidədir.

Ölkəmizdə hələlik sonuncu və sayca 19-cu "ASAN xidmət" mərkəzi Ağcabədi şəhərində yaradılıb. Vətəndaşlara xidmət imkanları ilə bu mərkəzin statusu daha böyükdür, yəni "ASAN Həyat" kompleksidir. İyunun 3-də Prezident İlham Əliyevin iştirakı ilə açılışı olan kompleks iyun ayının 16-dan vətəndaşların xidmətindədir. Mərkəzin açılışı zamanı "ASAN" könüllüləri ilə görüşdə çıxış edən Prezident İlham Əliyev "ASAN xidmət"i milli brend adlandıraraq deyib: "Bu gün "ASAN xidmət" ölkəmizin intellektual məhsuludur. Mən bir dəfə demişəm, bir daha demək istəyirəm ki, biz artıq bu intellektual məhsulu ixrac edirik. Bir neçə ölkə ilə bizim "ASAN xidmət" mərkəzlərinin o ölkələrdə yaradılması ilə əlaqədar müqavilələr imzalanıb. Bəzi ölkələrdə artıq "ASAN xidmət" mərkəzləri fəaliyyətə başlayıb. Bu, bizim milli brendimizdir. "ASAN xidmət"in fəaliyyətə başlaması və uğurla fəaliyyət göstərməsi bu sahədə aparılan siyasətin çox gözəl nəticəsidir".

### Ağcabədidə 9 rayonun sakinlərinə xidmət göstəriləcək

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnur Niftəliyevin məlumatına görə, Ağcabədi "ASAN Həyat" kompleksinin tikintisinə 2018-ci ilin aprel ayında başlanılıb və bu ilin iyununda işlər başa çatdırılıb. Bu regional mərkəz Ağcabədi ilə yanaşı, Beyləqan, Zərdab, Ağdam, Şuşa, Füzuli, Cəbrayıl, Xocalı və Xocavənd rayonlarında qeydiyyatda olan 814 900-dən çox vətəndaşla bərabər, ölkə üzrə ərazi məhdudiyyəti olmadan bütün vətəndaşlara xidmət göstərəcək.

Bu kompleks üçün ayrılan ərazidə "ASAN Həyat"ın 7290 kvadratmetrlik 3 mərtəbəli möhtəşəm inzibati binası inşa olunub, həmçinin uşaq meydançası, idman meydançası, istirahət meydançası, avtobus dayanacağı, 100 avtomobillik avtodayanacaq, 54 yerlik açıq hava kafesi, 92 və 46 yerlik 2 zaldan ibarət kinoteatr, amfiteatr diskoteka, "ABAD Food Hall", "ABAD Box Park" və paintball oyun sahəsi yaradılıb. Digər "ABAD Food Hall"larda olduğu kimi, burada da ABAD-çılar tərəfindən qeyri-sənaye üsulu ilə hazırlanmış məhsulların sərgi-satışı təşkil ediləcək. "ABAD Box Park"da isə vətəndaşlar ABAD məhsullarının yerləşdirildiyi xüsusi konteynerlərdə müasir küçə yeməklərini dadacaq, həmçinin alış-verişdən yararlana biləcəklər.

Bu mənada vətəndaşlar operativ və gülərüz xidmətlə yanaşı, bu konseptin istirahət və əyləncə imkanlarından da istifadə edə biləcəklər. Çünki göründüyü kimi, kompleks vətəndaş rahatlığı üçün, həyat standartlarının yaxşılaşdırılmasına xidmət edən müxtəlif həlləri əhatə edir.

### "Bu, Prezident İlham Əliyevin idarəçiliyinin nümunəsidir"

Ağcabədi regional "ASAN xidmət" mərkəzində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 320 xidmət həyata keçiriləcək. Mərkəzdə əməkdaşların sayının 207, könüllülərin sayının 45 nəfər olması nəzərdə tutulur.

Kompleksin inzibati binası fərqli xarici üslubu ilə yanaşı, daxili interyeri, genişliyi, son dərəcə təmizliyi ilə də ilk andan insanda xoş ovqat yaradır. Elə ilk addımından şəffaf və operativ xidmət məkanına düşdüyünü başa düşən vətəndaşı girişdə gülərüz və mehriban personal qarşılayaraq ona ilk lazım olan informasiyanı verir. Məlumat mərkəzinin gülərüz əməkdaşlarının vətəndaşlarla iş prosesini kənardan izləyirik. Əməkdaşlar vətəndaşların sənədlərini yoxladıqdan sonra onlara hansı xidmət üçün müraciət etməli olduqlarını aydınlaşdırırlar. Beləcə hər kəs asanlıqla istənilən xidmətdən yararlana bilir. Və təbii ki, vətəndaşın mərkəzin inzibati binasına daxil olmasından başlayan bütün proseslər koronavirus təhlükəsi səbəbindən sosial məsafə tələblərinə əməl edilməklə həyata keçirilir.

Mərkəzdə söhbətləşdiyimiz Mətləb Zeynalov Ağcabədi sakinidir, "ASAN xidmət"ə övladına şəxsiyyət vəsiqəsi almaq üçün gəlmişdi. Onun sözlərinə görə, bu mərkəzin istifadəyə verilməsi Prezident İlham Əliyevin Ağcabədiyə və ətraf rayonlara böyük töhfəsidir: "Oğluma şəxsiyyət vəsiqəsi almaq üçün gəlmişəm. Elə binaya daxil olduğum ilk andan əməkdaşların gülərüz münasibəti ilə qarşılaşdım. Operativ şəkildə sənədlərimizi qəbul etdilər, şəkil çəkdilər və təyin olunan vaxtda gəlib hazır sənədi götürəcəyik. Mən ömrümdə dövlət orqanlarına müraciətimə bu qədər çevik münasibət göstərildiyini görməmişdim. Ona görə doğrudan da, çox məmnunam və sevinirəm ki, artıq vətəndaşların müraciətlərinə bu cür münasibət göstərilir. Bu, hörmətli Prezidentimiz İlham Əliyevin idarəçiliyinin gözəl nümunəsidir. Onun həm Ağcabədiyə, həm də ətraf rayonların sakinlərinə böyük töhfəsidir".

Təsadüfdən söhbət etdiyimiz digər Ağcabədi sakini Bəhruz Novruzov da azyaşlı qızına şəxsiyyət vəsiqəsi almaq üçün gəlmişdi. Göstərilən xidmətlərdən məmnun qaldığını bildirən Bəhruz Novruzov da qənaətlərini bölüşərək dedi: "İndiyədək dəfələrlə digər şəhər və rayonlarda "ASAN xidmət" mərkəzlərinin yaradılmasını izləmişdim. Bu gün mən yerli sakin kimi olduqca sevinirəm ki, indi belə mərkəz mənim rayonumda yaradılıb. Mərkəz açılan kimi qızımı da götürüb gəldim ki, ona şəxsiyyət vəsiqəsi alaq. Binaya daxil olanda işimizi yekunlaşdırana qədər kollektivin səmimi, gözəl münasibətini gördüm. Ona görə belə bir mərkəzin yaradılmasına görə birinci növbədə dövlət başçısına minnətdarlığımı bildirirəm. Bu mərkəzin gözəl binası həm də Ağcabədinin ən gözəl ünvanıdır və abad şəhərimizin simasına yeni rəng qatır".

### "Bugünkü könüllülər sabahın rəhbərləridir"

"ASAN xidmət" mərkəzlərinin Azərbaycanın ictimai həyatına verdiyi ən böyük töhfələrdən biri də könüllülər hərəkatının inkişafıdır. Ümumiyyətlə isə Azərbaycanda könüllülər hərəkatı "ASAN xidmət"dən başlayıb. Burada könüllülük fəaliyyəti sahəsində əldə edilən müsbət təcrübə bütövlükdə ölkədə bu hərəkatın daha da böyüməsinə səbəb olub. Həyat yolu "ASAN xidmət"dən başlayan könüllülərin bir qismi indi dövlət və özəl strukturlarda çalışırlar.

Qeyd etdiyimiz kimi, Ağcabədi regional "ASAN xidmət" mərkəzində 45 könüllünün fəaliyyəti nəzərdə tutulur. Artıq onların bir qismi öz işinin başındadır. Söhbətləşdiyimiz Çinarə Ağayeva Ağdam rayonundan məcburi köçkündür. O, könüllülük fəaliyyəti ilə qənaətlərini bölüşərək dedi: "Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialında riyaziyyat və informatika ixtisası üzrə təhsil alıram, dördüncü kurs tələbəsiyəm. Fikrimcə, könüllülük fəaliyyəti mənim daha uğurlu gələcək karyeram üçün olduqca mühüm əhəmiyyət kəsb edir. Çünki könüllülük ictimai həyata atılan ilk addımdır. Prezident İlham Əliyevin açılış mərasimində "Bugünkü könüllülər sabahın rəhbərləridir" deməsi könüllülük fəaliyyətinə verilən ən gözəl qiymətdir. Dövlət başçısının çıxışı bizə verilən ən gözəl nəsihət və tövsiyə oldu. Bu sahədəki fəaliyyətimiz gələcəyimiz üçün ən gözəl təcrübə olacaq".

Beləliklə, Ağcabədi "ASAN xidmət" mərkəzi öz gülərüz kollektivi və könüllüləri ilə vətəndaşların tam xidmətindədir. Artıq 9 rayonun da əhalisinin dövlət orqanlarına müraciəti əhəmiyyətli dərəcədə asanlaşıb. Hazırda 8 "ASAN xidmət" mərkəzinin yaradılması prosesi gedir. Bu da, ilk növbədə, onu göstərir ki, vətəndaş məmnuniyyəti ən yüksək səviyyədə olduğundan xidmət şəbəkəsinin daha da genişləndirilməsi sosial sifarişdir.

**_Rəşad CƏFƏRLİ,_**
**_"Azərbaycan"_**

## Pandemiya heç bir təsərrüfat işini təxirə salmır

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov inzibati ərazi dairələri üzrə nümayəndələrin və yerli bələdiyyə sədrlərinin iştirakı ilə növbəti onlayn müşavirə keçirib. Müşavirədə inzibati ərazi dairələrində ümumi vəziyyət, koronavirus pandemiyasına qarşı mübarizə tədbirlərinin gedişi, sosial-iqtisadi layihələrin icrası, mədəni quruculuq sahəsində görülən işlər müzakirə olunub.

Geniş çıxış edən T.Qaraşov bu günlər 3 modul tipli xəstəxananın açılışı zamanı dövlət başçısının COVID-19 pandemiyasına qarşı mübarizə ilə bağlı qarşıya qoyduğu vəzifələrin Lənkəran sakinləri üçün də mühüm əhəmiyyət daşıdığını xüsusi vurğulayaraq hamını bu vəzifələri icra etməyə, bütün qüvvələri səfərbər edib həmrəylik nümayiş etdirməyə səslədi. Natiq pandemiya ilə əlaqədar tətbiq olunan karantin rejimi qaydalarına, tibbi-qoruyucu vasitələrdən, maska və digər ləvazimatlardan istifadəyə, habelə vətəndaşların həftəsonu yaşayış yerini tərk etməməsi ilə bağlı tələbə tam və şüurlu şəkildə əməl olunması üçün mobil qrupların üzvlərini, ağsaqqalları, ziyalıları, ictimai cəhətdən aktiv qadınları, gəncləri cəlb etməklə yerlərdə təbliğat-izahat işlərinin daha da gücləndirilməsinin, Nazirlər Kabineti yanında Operativ Qərargahın təlimat və tövsiyələrinin müntəzəm olaraq əhaliyə çatdırılmasının əhəmiyyətini bir daha müşavirə iştirakçılarının diqqətinə çatdırdı, pandemiya şəraitində əhalinin az təminatlı təbəqəsinin qayğı ilə əhatə edilməsinin vacibliyini vurğuladı.

Onlayn müşavirədə həmçinin rayon ərazisində təmizlik, sanitariya-dezinfeksiya işlərinin davam etdirilməsinin, məişət tullantılarının vaxtında yığılıb daşınmasının, kənd təsərrüfatı məhsulları istehsalçılarının suvarma suyuna olan tələbatının ödənilməsi üçün su ehtiyatlarından səmərəli istifadə olunmasının, habelə baramanın tam və itkisiz tədarükünün həlli vacib məsələlər kimi qarşıda durduğu qeyd olundu. Tövsiyə edildi ki, havaların istiləşməsi ilə əlaqədar meşələrin, taxıl zəmilərinin yanğından mühafizəsi, mövcud yaşıllıqların qorunması və suvarılması, haqqı ödənilən ictimai işlərə cəlb olunan şəxslərin işə davamiyyətinə ciddi nəzarət olunması, yaşıllaşdırma-abadlıq və digər işlərdə onların qüvvəsindən səmərəli istifadə edilməsi lazımdır.

**_S.CAVADOV,_**
**_"Azərbaycan"_**

## Birdəfəlik ödəmə vətəndaşların banklar tərəfindən təqdim edilmiş kartlarına köçürüləcək

Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq Nazirlər Kabinetinin təsdiqlədiyi Tədbirlər Planı əsasında ölkəmizdə pandemiya ilə əlaqədar 4,8 milyon vətəndaşı əhatə edən məşğulluğa və sosial rifaha dəstək tədbirləri həyata keçirilib.

Bu çərçivədə işsizlərdən və xüsusi karantin rejiminə görə işini itirən, qeyri-formal çalışan şəxslərdən ibarət aztəminatlılara aprel-may aylarında aylıq 190 manat məbləğində birdəfəlik ödəmənin verilməsi proqramı icra olunub. Həmçinin işsizlikdən sığorta ödənişinin müddəti bitmiş işsiz şəxslərə, ünvanlı dövlət sosial yardımının verilmə müddəti bitənlərə, peşə hazırlığı prosesində fasilə yaranmış kursların müdavimlərinə, əlillik müddəti başa çatan əlilliyi olan şəxslərə, o cümlədən sağlamlıq imkanları məhdud uşaqlara müvafiq ödənişlərin verilməsi müddətinin uzadılması təmin edilib. Azərbaycan dövlətinin pandemiya dövründə öz vətəndaşlarına ardıcıl sosial dəstəyinin davamı olaraq Nazirlər Kabineti 23 iyun 2020-ci il tarixli daha bir qərar qəbul edib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, qərara əsasən, Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron, Yevlax, Cəlilabad, Masallı rayonları üzrə 190 manat məbləğində birdəfəlik ödəməni almış şəxslərə eyni məbləğdə ödəmənin verilməsi birdəfəlik şəkildə həyata keçiriləcək. Ödəmə həmin şəxslərin banklar tərəfindən təqdim edilmiş bank kartlarına köçürüləcək.

Həmçinin Nazirlər Kabinetinin digər qərarında ünvanlı dövlət sosial yardımının müddəti bitmiş aztəminatlı ailələrə, əlillik müddəti başa çatan əlilliyi olan şəxslərə, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara, peşə hazırlığı prosesində fasilə yaranan kursların müdavimlərinə ödənişlərin də davam etdirilməsi nəzərdə tutulur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Maliyyə Nazirliyi bu qərardan irəli gələn məsələləri həll edəcək.

## Ünvanlı yardım və işsizlikdən sığorta ödənişinin müddəti uzadılıb

Koronavirus pandemiyası ilə mübarizə şəraitində aztəminatlı ailələrə ünvanlı dövlət sosial yardımının verilməsi proseduru sadələşdirilib.

Baş Nazir Əli Əsədovun bununla bağlı imzaladığı qərara əsasən ölkədə martın 1-dən etibarən xüsusi karantin rejimi müddətində ünvanlı dövlət sosial yardımının təyinolunma müddəti bitən aztəminatlı ailələrə bu yardımın verilməsi 2020-ci il 1 iyul tarixinədək uzadılır.

Bundan başqa, 2020-ci il 1 aprel tarixindən etibarən işsizlikdən sığorta ödənişinin müddəti bitmiş işsiz şəxslərə minimum məbləğdə işsizlikdən sığorta ödənişi iki ay, peşə hazırlığı prosesində fasilə yaranmış kursların müdavimlərinə təqaüdün ödənişi 2020-ci il 1 iyul tarixinədək olan müddətə davam etdiriləcək.

## Koronavirus pandemiyası ilə mübarizə şəraitində əlilliyi olan şəxslərin əlillik müddəti uzadılıb

Yeni növ koronavirus (COVID-19) pandemiyası ilə mübarizə şəraitində əlilliyi olan şəxslərin əlillik müddəti uzadılıb.

AZƏRTAC xəbər verir ki, bununla bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Yeni növ koronavirus (COVID-19) pandemiyası ilə mübarizə şəraitində əlilliyi olan şəxslərin əlillik müddətinin uzadılması barədə" 2020-ci il 7 aprel tarixli 128 nömrəli qərarına dəyişiklik edilib.

Qərara əsasən "Yeni növ koronavirus (COVID-19) pandemiyası ilə mübarizə şəraitində əlilliyi olan şəxslərin əlillik müddətinin uzadılması barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 7 aprel tarixli 128 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 4, maddə 475) 1-ci hissəsində "xüsusi karantin rejiminin bitdiyi tarixdən sonrakı ayın 1-dək" sözləri "xüsusi karantin rejimi ilə əlaqədar olaraq, 2020-ci il 1 iyul tarixinədək, xüsusi karantin rejiminin sərtləşdirilməsi tətbiq olunan rayonlarda (şəhərlərdə) isə sərtləşmə müddətinin başa çatdığı tarixədək" sözləri ilə əvəz edilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Maliyyə Nazirliyi bu qərardan irəli gələn məsələləri həll edəcək.

## Daha 100 şəhidin vərəsələrinə birdəfəlik ödəmə verilməsi barədə qərar qəbul edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində fəaliyyət göstərən komissiya daha 100 şəhidin 142 vərəsəsinə birdəfəlik ödəmənin (11 min manat) verilməsi barədə qərar qəbul edib. Birdəfəlik ödəmə vəsaitlərinin yaxın günlərdə həmin vərəsələrin bank hesablarına köçürülməsi üçün müvafiq işlər aparılır.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, ümumilikdə 12281 şəhidin vərəsələrinin birdəfəlik ödəmə almaq hüququ müəyyən edilib. İndiyədək onlardan 12 mindən çox şəhidin 18 min vərəsəsinin birdəfəlik ödəmə ilə təminatı həyata keçirilib.

Şəhidlərin vərəsələrinin birdəfəlik ödəmə ilə təminatı proqramı artıq 98 faizədək icra olunub.

## Gürcüstandan və Rusiyadan 428 nəfər Azərbaycan vətəndaşının ölkəyə qayıtması təmin edilib

COVID-19 pandemiyası ilə əlaqədar qarşılıqlı razılıq əsasında Azərbaycan Respublikası ilə Gürcüstan və Rusiya Federasiyası arasında müntəzəm sərnişin hava uçuşları və dəmir yolu sərnişin daşıması müvəqqəti dayandırıldığından vətəndaşların qəbulu məqsədilə xüsusi çarter reysləri və ölkələrin quru sərhədlərində yaradılan xüsusi keçiddən istifadə olunur.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, Azərbaycana gəlmək istəyən vətəndaşların müraciətləri əsasında Gürcüstandan ölkəmizə daha 176 nəfər soydaşımız əvvəlcədən müəyyən olunan siyahı əsasında Şıxlı sərhəd-nəzarət məntəqəsindən keçərək Vətənə qayıdıb.

Bununla yanaşı, Azərbaycan və Rusiya sərhədindəki Samur sərhəd-nəzarət məntəqəsi vasitəsilə ölkəmizə gəlmək istəyən 252 vətəndaşımızın da Azərbaycana qayıtması təmin edilib.

Sərhədi keçən vətəndaşlar Azərbaycanda tətbiq edilən xüsusi karantin rejiminin tələblərinə uyğun olaraq karantin zonalarında yerləşdirilirlər.

Xatırladaq ki, xarici ölkələrdə olan və Azərbaycana gəlmək istəyən vətəndaşlarımızın geri qayıtması ilə əlaqədar koronavirus pandemiyası dövründə ardıcıl tədbirlər görülür.

# Qlobal pandemiya ilə mübarizə davam edir

*Əvvəli 1-ci səh.*

İnfeksiyanın sürətlə yayılmasının qarşısını almaq üçün yenidən sərt karantin rejimi tətbiq edib, maska taxılmaması ilə bağlı yüksək cərimələr müəyyənləşdiriblər...

Hələlik çarə budur...

### Koronavirusla mübarizəyə töhfə

Koronavirus infeksiyasının ortaya çıxdığı ilk zamandan etibarən Azərbaycanda ona qarşı çevik və qabaqlayıcı tədbirlərə start verildi.

Qlobal pandemiya ilə mübarizənin hər bir məqamı Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Bu müddət ərzində dövlət başçısının fəaliyyəti, mütəmadi keçirdiyi görüşlər, verdiyi qərarlar koronavirusla mübarizəyə öz töhfəsini verdi. Buna görə virusun ölkəmizdə geniş yayılmasının və kütləvi insan ölümlərinin qarşısı alındı.

Bu səbəbdəndir ki, aylardır vətəndaşlarımızdan Prezidentin ünvanına saysız təşəkkür məktubları gəlməkdə davam edir.

### Qabaqlayıcı və zəruri tədbirlər görülür

Hazırda Azərbaycanda koronavirusa qarşı mübarizə davam edir, COVID-19-un yol açacağı fəsadlardan qorunmaq üçün zəruri tədbirlər görülür.

Xüsusilə də virusun yayılma sürətini azaltmaq üçün mühüm addımlar atılır. Bu istiqamətdə görülən zəruri tədbirlərdən biri də yoluxma hallarının müəyyənləşdirilməsi istiqamətində testlərin edilməsidir. İyunun 22-nə olan statistikaya əsasən son sutka ərzində 4345 test aparılıb. Ölkədə aparılmış koronavirus testlərinin ümumi sayı isə 426 394-dür.

Son zamanlar yoluxma dinamikasındakı artım nəzərə alınaraq, Nazirlər Kabineti yanında Operativ Qərargah karantin rejiminin yenidən sərtləşdirilməsi ilə bağlı qərar qəbul etdi.

Yeni növ koronavirus infeksiyasının yayılma sürətinin azaldılması, habelə onun törədə biləcəyi fəsadların minimuma endirilməsi məqsədilə xüsusi karantin rejiminin sərtləşdirilməsini təmin etmək üçün Bakı, Sumqayıt, Gəncə, Lənkəran, Yevlax, Masallı, Cəlilabad şəhərlərinin və Abşeron rayonunun ərazisində 21 iyun saat 00:00-dan 5 iyul saat 06:00-dək məhdudiyyətlər tətbiq edildi.



### Tələblərə əməl edilməlidir

Bu dövr üçün fəaliyyətinə icazə verilən bir çox sahələrlə bağlı qaydalar da müəyyənləşdirilib. Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin (BDYPİ) İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Kamran Əliyev deyib ki, sərtləşdirilmiş xüsusi karantin rejimində kənd təsərrüfatı yüklərinin daşınması sərbəstdir: "Yalnız minik avtomobilləri ilə kənd təsərrüfatı məhsullarının daşınmasına icazə verilmir. Fermerlər öz məhsullarını yük maşınları ilə Bakı və sərt karantin rejiminin tətbiq olunduğu digər şəhərlərə, Abşeron rayonuna çatdıra bilərlər".



Eyni zamanda Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi qida məhsullarının ticarəti ilə məşğul olan müəssisələrdə xəstəliyə yoluxma riskini azaltmaq üçün tövsiyələr verib. Tövsiyələrə əsasən açıq şəkildə satılan və qablaşdırılmamış qida məhsulları xüsusi vitrin arxasında saxlanmalı, yalnız gigiyenik vasitələrlə təmin edilmiş işçi tərəfindən alıcıya təqdim olunmalıdır.

Soyuducuların temperatur rejiminə mütəmadi nəzarət edilməli, dondurulmuş qida məhsulları -18° C-də buzluqda saxlanılmalıdır.

Qeyd edilib ki, donu açılmış qida məhsulları təkrar dondurulmamalıdır. Tullantılar isə vaxtında kənarlaşdırılmalı, qabları mütəmadi olaraq təmizlənib, dezinfeksiya edilməlidir.

### Qaydaları pozanlar cəzalandırılır

Yuxarıda sadalanan və daha bu kimi xeyli sayda həyata keçirilən tədbirlər vətəndaşların sağlamlığının qorunması, təhlükəsizliyinin təmin olunması üçündür.

Qarşıya qoyulan məqsədə çatmaq üçün isə vətəndaşların da duyarlı davranması, həmrəylik göstərməsi və məsuliyyətli olması vacibdir.

Təəssüf ki, bəzi hallarda bunun əksi ilə rastlaşırıq...

Baş Dövlət Yol Polisi İdarəsindən verilən məlumata görə, koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Bakı, Sumqayıt, Gəncə, Lənkəran, Yevlax, Masallı, Cəlilabad şəhərlərinin və Abşeron rayonunun ərazilərində tətbiq edilmiş sərtləşdirilmiş xüsusi karantin rejiminin pozulmasına görə 22.06.2020-ci il saat 00:00-dan 23.06.2020-ci il saat 00:00-dək olan müddət ərzində nəqliyyat vasitələri ilə hərəkətdə olan 1029 nəfər, sərnişindaşımada istifadə olunan taksi və avtobuslarda tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə edilmədiyinə görə 262 nəfər olmaqla ümumilikdə 1291 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib.

Bildirilib ki, gün ərzində xüsusi karantin rejimi sərtləşdirilmiş inzibati ərazilərin sərhədlərində yerləşən postlarda aparılan yoxlamalar zamanı 175 nəqliyyat vasitəsi paytaxt, 291-i rayon istiqamətinə olmaqla 466 avtomobil geri qaytarılıb, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə axtarışda olan 2 nəfər şəxs aşkar edilib.

### İcazə sistemindən sui-istifadə halları da olur

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi SMS kodlarından sui-istifadə halları ilə bağlı xəbərdarlıq edib.

Agentlikdən verilən məlumata görə, aparılmış araşdırmalar nəticəsində müəyyən edilib ki, vətəndaşlar tərəfindən 8103 SMS icazə sistemində sui-istifadə hallarına yol verilir. Belə ki, bəzi vətəndaşların sistem vasitəsilə "1" kodu, yəni təxirəsalınmaz tibbi zərurətlə və hər hansı bir qrafik üzrə müalicə almaqla əlaqədar göndərilmiş müraciətlərini bu hal üzrə deyil, digər aidiyyəti olmayan məqsədlər üçün istifadə etdikləri müəyyən edilib.

Yuxarıda göstərilən neqativ hallar qətiyyən yolverilməzdir. Bu qaydaların pozulması hər birimizin sağlamlığını təhlükəyə atır. Virusun yoluxma sayını artıraraq, onun yox edilməsi istiqamətində görülən bütün tədbirləri effektsiz edir.

Birmənalı şəkildə bilməliyik ki, qaydalara əməl etməsək, vaksin tapılana qədər bu təhlükəli virusa yoluxmayacağımız, elə yaşayıb-yaşamayacağımız da sual altında olacaq...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Dünya yenidən karantində

Yer kürəsinin hər yerində tüğyan edən yeni tip koronavirusun, COVID-19-un yayılmasının qarşısının alınması üçün aylardır mübarizə aparılır. Ölkələr çoxsaylı tədbirlər görür, virusun təsirinin azaldılması məqsədilə lazımi addımlar atır. Lakin hələlik bu virusu tam ram etmək mümkün olmayıb. Əksinə, artıq bəzi ölkələrdə koronavirus epidemiyasının ikinci dalğasının başlandığı bildirilir. Halbuki daha əvvəl mütəxəssislər yoluxmanın ikinci dalğasının payızda və ya qışda başlayacağını proqnozlaşdırırdılar. Hətta bir neçə gün öncə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa Regional Ofisinin rəsmisi Hans Kluge yeni növ koronavirusun ikinci dalğasının payızda meydana gələ biləcəyi ilə bağlı xəbərdarlıq edərək, bütün ölkələrdə yoluxma sayının artımı ilə bağlı dərhal ciddi tədbirlərin görülməsinin vacibliyini bildirmişdi.

### Epidemiyanın ikinci dalğası başlayıb

Lakin reallıq proqnozları üstələdi. Ötən gün İsrailin Səhiyyə Nazirliyi və Hərbi Kəşfiyyat İdarəsi nəzdində fəaliyyət göstərən Koronavirusa Qarşı Mübarizə Mərkəzinin birgə hesabatında epidemiyanın ikinci dalğasının başlandığı, iyulda minlərlə yeni yoluxmaya və yüzlərlə ölüm hallarına səbəb olacağı bildirilib: "Yeni dalğa əvvəlkindən xüsusiyyətlərinə görə fərqlənəcək, lakin bu o qədər də ciddi olmayacaq. Mövcud vəziyyətlə bağlı ciddi karantin rejimi yenidən tətbiq edilə bilər".

Səhiyyə Nazirliyi vətəndaşların maskadan istifadə və koronavirusun qarşısını almaq üçün digər tədbirləri ciddiyə almamasından narahatlığını bildirib, həmçinin xəstələrin qəbulu üçün ixtisaslaşdırılmış şöbələri açmağa hazır olduğunu bəyan edib.

Cənubi Koreyanın Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzinin rəhbəri Çon İn Gyon paytaxt Seulda və ətraf bölgələrdə koronavirus infeksiyasına yoluxmanın ikinci dalğasının başladığını və payızadək davam edə biləcəyini deyib. Bundan başqa, Seul şəhər rəhbərliyi növbəti 3 gün ərzində yoluxanların sayının 30 nəfərdən çox olacağı təqdirdə məhdudiyyətlərin yenidən tətbiq olunacağını bildirib.

### Ölkələr karantin tədbirlərini bərpa edirlər

Avropanın bir sıra bölgələrində koronavirus pandemiyasının ikinci dalğası ilə əlaqədar karantin tədbirlərinin bərpasına zərurət yaranıb.

İspaniya hökuməti Araqon bölgəsində, Uesk əyalətində koronavirus infeksiyası aşkarlandığından yenidən karantin tədbirlərinə start verib. Bu, Avropa İttifaqına üzv ölkədə izolyasiyanın ləğvindən dərhal sonra yeni məhudiyyətlərin tətbiq olunduğu ilk haldır. Mütəxəssislər hesab edirlər ki, infeksiya meyvə-tərəvəz yığımında iştirak edən işçilər arasında yayılmağa başlayıb.

Bundan başqa, paytaxt Madrid və Barselonada da infeksiya ocaqları aşkarlanıb.

Qonşu Portuqaliyada da iyunun 23-dən karantin rejimi yenidən sərtləşdirilib. Məhdudiyyətlər hələlik paytaxt Lissabon və şəhərə yaxın bölgələrə şamil olunub. Hökumət profilaktika tədbirləri qismində komendant saatı da tətbiq edib. Mağaza, kafe və barların işi axşam saat 8-ə kimi məhdudlaşdırılıb.



Portuqaliyada son bir ay ərzində koronavirusa yoluxanların sayı 9 min nəfəri keçib. Ümumilikdə ölkədə bu günədək 40 minədək yoluxma, 1,5 min ölüm qeydə alınıb.

Özbəkistan hökuməti koronavirusa yoluxma faktının artdığı Daşkənd məhəllələrində karantin rejimini sərtləşdirib. Bu barədə Özbəkistanın Nazirlər Kabinetinin Operativ Qərargahı məlumat yayıb. Bildirilir ki, binaların girişlərində postlar qurulacaq və 24 saatlıq növbətçilik sistemi əsasında vəziyyətə nəzarət olunacaq. Hazırda Daşkənd "sarı zona" elan edilib. Paytaxtın 71 məhəlləsi iyunun 17-dən "qırmızı zona"ya daxil olunub. Karantin rejimi avqustun 1-dək uzadılıb.

Qazaxıstanın Almatı şəhərində də koronavirus infeksiyası ilə bağlı vəziyyət pisləşdiyindən əlavə məhdudlaşdırıcı tədbirlər görülüb. Bu barədə ölkənin baş sanitar həkimi Jandarbek Bekşin Qazaxıstan KİV-nə açıqlamasında bildirib. Onun sözlərinə görə, ölkədə epidemioloji vəziyyət sakinlərin özünənəzarətindən asılıdır: "Sirr deyil ki, koronavirusa yoluxmanın baş verdiyi əsas yerlər insanların kütləvi toplaşdığı məkanlar və ictimai nəqliyyatdır. Məhz buna görə həftəsonu ictimai yerlərə giriş məhdudlaşdırılır və kütləvi dezinfeksiya tədbirləri görülür. Dezinfeksiya koronavirusa qarşı əsas profilaktika hesab edilir və bu səbəbdən şəxsi gigiyena qaydalarını gözləmək, əlləri yumaq, evlərdə dezinfeksiyaedici vasitələrdən istifadə etmək lazımdır".

### Tibbi maska taxmağın həyati əhəmiyyəti var

Türkiyədə pandemiya ilə əlaqədar maska taxmayan vətəndaşlara cərimə tətbiq edilməsinə başlanılıb. Cərimənin 900 türk lirəsi (təxminən 130 ABŞ dolları) olacağı qeyd olunur. İyunun 22-dən ölkənin bütün vilayətlərində tibbi maskaların taxılması məcburidir. Belə ki, 48 vilayətdə bütün yerlərdə, 33 vilayətdə isə ticarət mərkəzlərində, mağazalarda, restoranlarda, kafelərdə və izdihamın müşahidə olunduğu digər yerlərdə maska taxılması mütləqdir.

Bolqarıstan hökuməti isə qapalı ictimai məkanlarda qoruyucu maska taxmaq rejimini təkrar tətbiq edib. Yeni qərara əsasən teatr, kinoteatr və digər qapalı məkanlarda maska taxmaq məcburi olacaq. Bolqarıstanda iyunun əvvəlində xüsusi karantin yumşaldılsa da, son iki həftə ərzində yoluxma sayı yenidən artdığından rejim bu ayın sonuna kimi uzadılıb.

Almaniyada karantin qaydalarının yumşaldılması koronavirusa yoluxma faktlarını artırıb. Robert Kox İnstitutunun hesablamalarına görə, Almaniyada hər 100 koronaviruslu şəxs virusu 288 nəfərə yoluxdurur. Yoluxdurma 0,89-dan 2,3 dəfəyə qədər artıb. Mütəxəssislərin fikrincə, buna səbəb böyük şəhərlərdə insanların maska və gigiyenik məhsullardan istifadə etməməsi, ictimai nəqliyyat, park və xiyabanlarda sosial məsafəni gözləməməsidir.

Artıq Köln şəhər bələdiyyəsi koronavirusa yoluxma hallarının artması ilə bağlı narahatlığını əyalət parlamentinə yazılı şəkildə bildirib.

Azərbaycanda koronavirus infeksiyasının geniş yayılmasının qarşısının alınması üçün yanvar ayından zəruri qabaqlayıcı tədbirlər həyata keçirilir. Kütləvi tədbirlərin, insanların qrup şəklində bir arada olmasının qadağan edilməsi, təhsil müəssisələrinin və sərhədlərin bağlanması uğurlu tədbirlərdəndir. Bu tədbirlər, eləcə də karantin rejimi həyata keçirilməsəydi, ölkədə yoluxma və ölüm hallarının sayı fantastik rəqəmlərlə müşahidə olunardı. Təəssüf ki, atılan addımlara baxmayaraq, ölkədə məhdudiyyətlər aradan qaldırıldıqdan sonra virusa yoluxanların və ölənlərin sayı artdı. Bu da vətəndaşların laqeyd münasibəti və etinasızlığının, təcrid qaydalarına riayət olunmamasının acı nəticəsidir. Əgər insanlar məsuliyyətdən yayınıb şəxsi gigiyena qaydalarına əməl etməsələr, məsafə saxlamasalar, tibbi maskadan istifadə etməsələr, o zaman COVID-19-un yayılma sürəti həyata keçirilən istənilən qabaqlayıcı tədbiri üstələyəcək. Dövlətin infeksiyanın qarşısının alınmasına qarşı gördüyü işlərə cəmiyyət tərəfindən lazımi dəstək verilərsə, bu zaman virusun yayılma sürəti kifayət qədər azalar. Hər kəs bilməlidir ki, hökumətin atdığı addımlar yalnız vətəndaşların sağlamlığının qorunması üçündür. Vətəndaşlar isə öz növbəsində məsuliyyətli davranıb bu tədbirlərin effektli olmasına dəstək verməlidirlər. Sərtləşdirilmiş xüsusi karantin rejimi başa çatandan sonra da insanlar qaydalara əməl etməyi, bunu özlərinin yeni həyat tərzinə çevirməyi bacarmalıdırlar. Artıq şəxsi məsuliyyət ən yüksək səviyyədə dərk edilməlidir. Biz bu xəstəliyin qarşısını almaq, yoluxma faizini endirmək üçün nə etmək lazım olduğunu bilirik - ictimai məkanlardan, insanların toplaşdığı yerlərdən mümkün qədər uzaq durmaq, sosial məsafəni qorumaq, maska taxmaq. Bu qaydalara nə qədər çox riayət edilərsə, yoluxma halı da bir o qədər az olar.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

## Xüsusi karantin rejiminin tələblərini pozaraq qanunsuz sərnişindaşıma fəaliyyəti ilə məşğul olan şəxslərin əməlləri ifşa edilib

Azərbaycanda dövlət strukturlarının əhalinin sağlamlığının qorunması, digər sahələr üzrə xidməti fəaliyyətin təşkili istiqamətində səfərbər olunduğu vaxtda mövcud vəziyyətdən öz maraqları naminə istifadə edərək, vətəndaşların və dövlətin qanunla qorunan mənafelərinə zərər vuran, hakimiyyət orqanlarının işinə maneə törədən hüquqazidd əməllərə qarşı prokurorluq orqanları tərəfindən mübarizə tədbirləri davam etdirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Bakıdan Gəncə və Şəki şəhərlərinə qanunsuz sərnişin daşınaraq ölkə ərazisindəki karantin qaydalarının pozulması ilə bağlı daxil olmuş məlumat Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.

Araşdırma zamanı Eldəniz Daşdəmirovun və Hafiz İsgəndərovun sanitariya-gigiyena və karantin qaydalarını pozaraq istifadələrində olan avtomobillərlə ayrı-ayrı şəxslərdən müxtəlif məbləğlərdə pul vəsaiti almaqla onları Gəncə və Şəki şəhərlərinə apararaq qanunsuz sərnişindaşıma fəaliyyəti ilə məşğul olmalarına əsaslı şübhələr müəyyənləşdirilib.

Keçirilmiş əməliyyat tədbirləri nəticəsində E.Daşdəmirovun və H.İsgəndərovun üzərlərindən nömrələnmiş pul əsginasları aşkarlanaraq götürülüb. Onların hər ikisi törətmiş olduqları qanunsuz əməlləri etiraf ediblər və bu audio-video çəkilişlərlə qeydə alınıb.

Faktla bağlı toplanmış material üzrə Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsində araşdırma davam etdirilməklə İnzibati Xətalar Məcəlləsinin 211.1-ci (epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsi ilə inzibati xəta haqqında iş üzrə icraat başlanıb və qanunvericiliyin tələblərinə əsasən qərar qəbul edilməsi üçün aidiyyəti üzrə Binəqədi və Qaradağ rayon məhkəmələrinə göndərilib.

Məhkəmələrin müvafiq qərarlarına əsasən E.Daşdəmirov və H.İsgəndərov inzibati məsuliyyətə cəlb olunaraq barələrində 20 gün müddətinə inzibati həbs seçilib.

Azərbaycan Respublikası Baş Prokurorluğu vətəndaşlara müraciət edərək xüsusi karantin rejiminin tələblərinə riayət olunmasına, o cümlədən hər hansı qanunsuz fəaliyyətlə məşğul olmamağa çağırır. Bildirilir ki, xüsusi karantin rejiminin tələblərinə əməl etməyərək qanun pozuntularına yol vermiş şəxslər daha ciddi məsuliyyət tədbirlərinə cəlb olunacaqlar.

# *Elmar QASIMOV:* "Tələbələr təhsilverəndən güzəşt yox, keyfiyyətli təhsil tələb etməlidirlər"

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov mətbuat üçün müsahibə verib. Müsahibəni oxucularımıza təqdim edirik.

*- Elmar müəllim, mövcud vəziyyətlə əlaqədar təhsil sahəsində istər dövlət tərəfindən, istərsə də sahəyə aidiyyəti qurum kimi Təhsil Nazirliyi tərəfindən tələbələrə dərs prosesində və imtahanlarda xeyli güzəştlər olundu. Təhsil sahəsində uzunmüddətli təcrübəsi olan biri kimi bu güzəştləri necə xarakterizə edərdiniz?*

- Ümumiyyətlə, qeyd edim ki, Azərbaycan pandemiya dövründə ən uğurlu strategiya seçən ölkələrdən biridir. Pandemiyanın mənfi təsirlərini minimuma endirmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyi ilə preventiv tədbirlərin görülməsi həm ölkə əhalisinin sağlamlığının, həm də iqtisadi dayanıqlığın təmin edilməsi baxımından bir çox ölkələr üçün uğurlu nümunədir.

Təhsil sisteminə gəlincə isə, pandemiya ümumilikdə dünyada tədrisin formatını dəyişdi. Təhsil sistemində tədrisin fasiləsizliyinin təmin edilməsi əsas şərtdir və bunu klassik üsullarla təmin edə bilmədikdə alternativ mexanizmlər işə salınmalı idi. Sevindirici haldır ki, dünyanın bir sıra ölkələrində tətbiq edilən distant təhsilə keçid ölkəmizdə uğurla və sürətlə baş verdi.

Dövlət başçımızın birbaşa təşəbbüs və göstərişləri, Nazirlər Kabinetinin qərarları, Təhsil Nazirliyi tərəfindən həyata keçirilən tədbirlər sayəsində yerli təhsil idarəetmə sistemi vaxtında avtomatlaşdırıldı.

Təhsil Nazirliyi tərəfindən teledərslərin təşkili, "Virtual məktəb" layihəsinin reallaşdırılması, müəllimlərə təlimlərin keçirilməsi və mentor dəstəyinin göstərilməsi, şəxsən təhsil naziri Ceyhun Bayramov tərəfindən bir neçə dəfə ali təhsil müəssisələrinin rəhbərləri, Tələbə Gənclər təşkilatlarının təmsilçiləri ilə aparılan onlayn müzakirələr də bu prosesə öz töhfəsini verdi. Ümumiyyətlə, nazirlik bu müddətdə səmərəli təkliflərimizi yüksək qiymətləndirdi və onların icrası istiqamətində dəstəyini əsirgəmədi.

Bilirsiniz ki, ötən müddət ərzində ali və orta ixtisas təhsili müəssisələrində müxtəlif onlayn platformalar üzərindən dərslərin təşkili uğurla təmin edildi. Son statistikaya görə, dərslərə 100 mindən artıq tələbə və professor-müəllim heyəti qoşulub.

Bundan başqa, Nazirlər Kabinetinin "Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi barədə" qərarı da zamanında həssaslığa verilmiş layiqli bir qərar idi. Qərarın ali, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan 22 mindən artıq həssas əhali qrupuna aid olan tələbəyə şamil edilməsi bu çətin günlərdə vətəndaşlara önəmli dəstəkdir. Məlum olduğu kimi, qeyd edilən kateqoriyalardan olan tələbələrin təhsil haqqı xərcinin 50 faizi 2019-2020-ci ilin yaz semestri üzrə, 50 faizi isə 2020-2021-ci tədris ilinin payız semestri üzrə elektron qaydada dövlət büdcəsi hesabına ödəniləcək. Yeri gəlmişkən onu da qeyd edim ki, tələbələr təkrar imtahanlar üçün ödənişlərdən də azad edilib.

Ümumi təhsil müəssisələrində yekun qiymətləndirmələrin aparılması, buraxılış imtahanlarının təşkili, ali təhsil müəssisələrində və təhsilin digər pillələrində yay imtahan sessiyaları ilə bağlı aidiyyəti qurumlar tərəfindən düzgün qərarlar qəbul edildi. Bu kontekstdə mən ayrı-ayrı təhsil müəssisələrinin də tələbələr üçün etdiyi güzəştləri yüksək qiymətləndirirəm. Tələbələrin lehinə bir çox önəmli qərarlar qəbul edildi, ali təhsil müəssisələri istər onlayn dərslərdə iştirakla bağlı, istər imtahan və buraxılış işləri ilə bağlı, istərsə də təhsil haqqı ilə bağlı yumşaldıcı tədbirlər həyata keçirdi.

*- Elmar müəllim, bu müddət ərzində rəhbərlik etdiyiniz Bakı Ali Neft Məktəbi hansı işlər gördü?*



- Bakı Ali Neft Məktəbi (BANM) onlayn təhsilə keçiddə bir çox ilklərə imza atdı. Elmi Şuranın vaxtında verdiyi qərarlarla distant təhsili uğurla formalaşdırmaq mümkün oldu. Onlayn təhsilin nəticələrinin qiymətləndirilməsi üçün ölkəmizdə ilk dəfə olaraq onlayn final imtahanları BANM-də keçirildi. İmtahanlar LMS (Learning Management System - Öyrənmənin idarəolunması sistemi) üzərindən reallaşdırıldı. Ənənəvi imtahanlardan fərqli olaraq bu dəfə imtahanlar test üsulu ilə keçirildi ki, bu isə qismən də olsa sualların yumşaldılması demək idi.

Bundan əlavə, ABŞ-ın Stanford Universitetinin lisenziyalı "Coursera for Campus" qlobal distant tədris proqramının təklif etdiyi kurslarda uğurla iştirak edərək sertifikatlar əldə edən Bakı Ali Neft Məktəbinin tələbələrinə müvafiq fənlər üzrə final imtahanlarından azad olmaq imkanı yaradıldı. Buraxılış işlərinin onlayn müdafiəsi prosesi də problemsiz başa çatdı.

2019/2020-ci təhsil ilində tədris planlarının bütün şərtlərini yerinə yetirmiş və tədris olunan bütün fənlər üzrə attestasiyalardan müvəffəqiyyətlə keçmiş V kurs tələbələri buraxılış işlərini və magistrantlar isə dissertasiya işlərini onlayn şəkildə müdafiə etdilər. Müdafiə prosesi "MS Teams" onlayn platforması üzərindən canlı formada Yekun Dövlət Attestasiya və İxtisaslaşdırılmış Elmi Şuranın üzvlərinin iştirakı ilə təşkil olundu.

Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin dövlət tərəfindən ödənilməsi üzrə Nazirlər Kabineti tərəfindən təsdiq edilən tədbirlər planına əsasən, Bakı Ali Neft Məktəbinin bu kateqoriyaya uyğun olan tələbələrinə sözügedən kompensasiyadan yararlanmaq imkanı yaradılıb.

Bütün bunlarla yanaşı, bir məqama da diqqət çəkmək istəyirəm ki, bizim ali məktəbin tələbələri tətbiq edilən güzəştlərdən ən az yararlanan tələbələr oldu. Birinci imtahan güzəştləri ilə bağlı qərar qəbul edilənədək bizim tələbələr artıq final imtahanlarını verib bitirmişdi. Bu da BANM-in Böyük Britaniyanın Heriot Vatt Universitetinin tədris proqramları əsasında təhsil həyata keçirməsi ilə bağlıdır. Biz semestr dərslərinə də digər universitetlərə nəzərən daha tez başlayırıq.

İkinci səbəb isə ali məktəbdə tədrisin, dərslərin və imtahanların keyfiyyətini təmin etməklə bağlı təsdiq olunmuş standartlar var ki, biz bu tələblərə əməl etməliyik. Tələbələrimiz də bu qaydaları çox yaxşı bilir.

Onlarla onlayn görüşlərdə mən dəfələrlə bildirmişəm ki, müasir əmək bazarında əldə edəcəyiniz diplomlardan daha çox sizin biliyinizə, sosial bacarığınıza və təcrübənizə önəm verəcəklər. Bu baxımdan hər hansı güzəştlər kontekstində dərslərdən azad olmaq, imtahanlarda güzəşt əldə edərək böyük bir semestri başa vurmaq gələcəkdə onların xeyrinə olmaya bilər. Sevinirəm ki, tələbələrimiz də bunu anlayışla qarşıladı. Fürsətdən istifadə edib onların hər birinə təşəkkür edirəm.

Hesab edirəm ki, müasir dövrün tələbələri imtahan güzəşti gözləməməlidir, var gücü ilə çalışmalı, çətin vəziyyətə uyğunlaşmağı, gələcəyə yönəlik qərarlar qəbul etməyi bacarmalıdırlar. Lakin mən gedən prosesləri izləyirəm və şahidi oluram ki, digər universitet tələbələri hələ də daha çox güzəşt olunmasını tələb edirlər. Onların hər biri bizim övladlarımızdır, təbii ki, hamımız onların ən az zərərlə bu proseslərdən çıxmasını istəyirik. Amma eyni zamanda onların gələcək təminatını da düşünməliyik. Bu gün onlar təhsilverənləri anlamaya bilərlər, amma əmin olsunlar ki, indi verilən qərarlar gələcəkdə daha çox köməklərinə çatacaq.

***"Azərbaycan"***

# DSX rəisi "Qazax" əlahiddə sərhəd diviziyasının xidməti-döyüş fəaliyyətini yoxlayıb

İyunun 22-23-də Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi, general-polkovnik Elçin Quliyev "Qazax" əlahiddə sərhəd diviziyasının hərbi hissə və bölmələrində xidməti-döyüş fəaliyyətinin təşkilini yoxlayıb.







DSX-nin Mətbuat mərkəzindən bildiriblər ki, Xidmət rəisi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən verilmiş tapşırıqların icra vəziyyətini öyrənib, təmas xəttində döyüş mövqelərində xidmətdə olan sərhədçilərlə görüşüb, xidməti və yaşayış şəraitlərinə, yeni yaradılmış döyüş mövqelərinə və məntəqələrinə, yeni salınmış yollara və qoruyucu sədlərə baxış keçirib.

"Qazax" əlahiddə sərhəd diviziyasının xidməti-döyüş fəaliyyətinin təşkili, zəruri sərhəd mühafizə və müdafiə infrastrukturunun təkmilləşdirilməsi, hərbi hissələrin və qarnizonların tikintisi üzrə görülən işlər nəzərdən keçirilib, döyüş hazırlığının yüksəldilməsi, dövlət sərhədinin toxunulmazlığının və şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsi istiqamətində zəruri göstərişlər verilib.

***"Azərbaycan"***





# İtaliya mətbuatında Paşinyan rejiminin əsl mahiyyətini ifşa edən məqalə dərc olunub

*İtaliyanın "L'Opinione" qəzetində italiyalı jurnalist Domeniko Letizianın müəllifi olduğu "Ermənistan: şübhəli demokratiya və Vatikandakı Ermənistan səfirliyinin sirri" sərlövhəli məqalə dərc edilib. Məqalədə son dövrdə Ermənistanda baş verən mürəkkəb daxili siyasi proseslər, baş nazir Nikol Paşinyanın hakimiyyətin mənimsənilməsi istiqamətində atdığı addımlar, təhlükəsizlik qurumlarının rəhbərlərinin son istefaları, konstitusiyaya son mübahisəli dəyişikliklərin qəbulu, hakim rejimin siyasi opponentlərə qarşı həyata keçirdiyi təqiblər, Ermənistanın ikinci və üçüncü prezidentləri və onların ailə üzvlərinin, o cümlədən sabiq prezident Serj Sarkisyanın kürəkəni, Ermənistanın Vatikandakı sabiq səfirinə qarşı açılmış istintaq işləri, müxalifət tərəfindən baş nazir və həyat yoldaşına qarşı qeyri-qanuni iqtisadi fəaliyyətlə bağlı irəli sürülən ittihamlar, hökumətin yarıtmaz fəaliyyətinin Ermənistanda ağır sosial-iqtisadi vəziyyətə, pandemiyanın ağır nəticələrinə gətirib çıxarması və bu məsələlərə münasibətdə beynəlxalq reaksiyalar barədə danışılıb. AZƏRTAC məqalənin tərcüməsini təqdim edir:*

Mövzunun İtaliya mətbuatında yer almamasına baxmayaraq, beynəlxalq və Qafqaz kütləvi informasiya vasitələri Ermənistanda hakim sinfin davranışı və pandemiyanın ağır vəziyyəti nöqteyi-nəzərindən baş verənləri diqqətlə izləyir. Ermənistan son bir neçə həftə ərzində hüquq mühafizə orqanlarının rəhbərlərinin, o cümlədən Ermənistan silahlı qüvvələri baş qərargahının rəisi, Milli Təhlükəsizlik Xidmətinin rəhbəri və Ermənistan polisinin rəisinin ard-arda istefası ilə yadda qalıb.

Baş nazir Nikol Paşinyanın müxalifətçilərə qarşı davam edən təqibləri, habelə N.Paşinyan və onun həyat yoldaşı Anna Akopyanın həyata keçirdiyi qeyri-qanuni iqtisadi fəaliyyətlər ilə bağlı son xəbərlər vəziyyəti daha da gərginləşdirən amillər olub. Xatırladaq ki, iyunun əvvəlində Ermənistanın baş naziri özünün və ailəsinin koronavirus testinin nəticələrinin müsbət çıxdığını elan etmiş və bir müddət öncə görüşlərin birində əlcək taxmadan ona bir stəkan su təqdim edən və sonradan koronavirus testi zamanı müsbət nəticə göstərən birindən yoluxduğunu bəyan etmişdi. İyunun 21-nə olan məlumata görə, Ermənistanda koronavirusa yoluxan xəstələrin sayı 20 min 588 nəfər, virusdan ölənlərin sayı isə 360 nəfər olub ki, bu da Cənubi Qafqaz ölkələri arasında ən acınacaqlı, kritik vəziyyətin Ermənistanda olduğunu göstərir.

2018-ci ilin yazında məxməri inqilaba rəhbərlik edərək hərbi xunta rejimini devirməklə beynəlxalq mətbuatda məşhurlaşan N.Paşinyan ölkədə həqiqi demokratiyanı bərqərar edəcəyi ilə bağlı beynəlxalq ictimaiyyətdə gözləntilər yaradıb. Lakin 2018-ci ilin dekabrında keçirilən parlament seçkilərindən sonra baş nazir kimi atdığı ilk addımlardan biri siyasi rəqiblərinə qarşı genişmiqyaslı təqiblərin başlanması olub. Belə ki, N.Paşinyanın birbaşa təlimatı ilə Ermənistanın ikinci və üçüncü prezidentlərinə, müvafiq olaraq Robert Köçəryan və Serj Sarkisyana qarşı cinayət işləri açılıb. Nəticədə R.Köçəryan həbs edilib. Serj Sarkisyanın yaxınları da hədəfə alınıblar. Keçmiş prezidentin qardaşı oğlu Hayk Sarkisyan cinayət, qanunsuz silah əldə etmə və silah saxlamaqda ittiham olunub. Bundan əlavə, eks-prezidentin digər qardaşı oğlu Narek Sarkisyana, qardaşı Levon Sarkisyana və onun övladlarına qarşı cinayət araşdırmaları başlanıb.

Bununla yanaşı, Ermənistanın Vatikandakı səfirliyinin də dolayısı olaraq baş qəhrəman kimi cəlb olunduğu çox spesifik bir daxili vəziyyət də yaranıb. Belə ki, bu, Qafqaz ölkəsində ən çox mübahisələrə səbəb olan cinayət işlərindən biri Ermənistanın Vatikandakı keçmiş səfiri, Sarkisyanın kürəkəni Mikael Minasyanla bağlıdır. Sözügedən səfirin adı ölkə tərəfindən beynəlxalq axtarışda olan cinayətkarların rəsmi siyahısına daxil edilib. Onun hazırda harada olmasına dair rəsmi məlumat olmasa da, İtaliyadakı erməni icmasının qeyri-rəsmi məlumatlarına görə, sabiq diplomatın İtaliyada gizləndiyi hesab edilir. M.Minasyan dələduzluqda, çirkli pulların yuyulmasında və iqtisadi məlumatların qanunsuz ötürülməsində ittiham olunur. M.Minasyan isə, öz növbəsində, baş nazir N.Paşinyanı və onun həyat yoldaşı A.Akopyanı korrupsiyada və ölkənin maraqlarına xəyanətdə ittiham edib. M.Minasyanın sözlərinə görə, baş nazir Nikol Paşinyan və həyat yoldaşı A.Akopyan 50 min ton metal qırıntısının qanunsuz ixracının iştirakçılarıdır. M.Minasyan həmçinin N.Paşinyanı beynəlxalq silah alverində və qeyri-qanuni almaz ticarətində, Ermənistanın dövlət xəzinəsindən gəlirlərin və vəsaitlərin götürülməsində ittiham edib.

Xatırladaq ki, pandemiyanın başlanğıcından bəri Ermənistan və hazırkı hökumətin qeyri-qanuni beynəlxalq daşımalarla bağlılığına dair çoxsaylı xəbərlər işıq üzü görüb. Ermənistan KİV-in məlumatına görə, aprelin sonlarında Rusiya Federasiyasının Təhlükəsizlik Xidməti Krasnodarda göyərtəsində qara bazar üçün 40 ton siqaret daşıyan Ermənistan nümayəndələri olan bir təyyarəni saxlayıb. Eyni şəkildə Voronej vilayətində də külli miqdarda qanunsuz siqaret ələ keçirilib.

Ermənistan parlamenti Baş Prokurorluğun müraciəti əsasında iyunun 16-da "Çiçəklənən Ermənistan" partiyasının sədri, yerli iş adamı Qaqik Tsarukyanın deputat toxunulmazlığını ləğv edib. Q.Tsarukyan N.Paşinyanı xalqa yalan danışmaqda, ölkədəki iqtisadi, sosial və səhiyyə sahəsində real vəziyyəti xalqdan gizlətməkdə, eləcə də ölkədə tüğyan edən koronavirus pandemiyası ilə mübarizə istiqamətində işi düzgün təşkil etməməkdə günahlandırır. O bildirib ki, N.Paşinyan inqilabi dəyişikliklər etmədiyi üçün hökumətin tərkibi tamamilə dəyişməlidir. Müxalifətdə təmsil olunan "Çiçəklənən Ermənistan" və "İşıqlı Ermənistan" partiyalarının deputatları Q.Tsarukyanla bağlı bu səsverməni boykot etsələr də, hökumət partiyasını təmsil edən deputatların səsi onun toxunulmazlığının ləğvi ilə bağlı qərarın qəbulu üçün yetərli olub. Q.Tsarukyanın həbsinə etiraz edən vətəndaşlara qarşı yerli polis tərəfindən zorakılıq nümayiş etdirilib və 250-yə yaxın şəxs həbs edilib. İstintaqa cəlb edilən Q.Tsarukyana qanunsuz biznes fəaliyyəti nəticəsində dövlətə 62 milyon dollar ziyan vurduğu barədə ittiham irəli sürülüb.

Nəhayət, iyunun 22-də Ermənistan parlamenti Konstitusiya Məhkəməsi sədrinin və digər üzvlərin səlahiyyətlərinə dair Konstitusiyaya mübahisəli düzəlişləri qəbul edib. Bununla bağlı parlamentin növbədənkənar iclasını boykot edən müxalifət partiyaları bu düzəlişlərin qəbulunu konstitusiya quruluşunun devrilməsi və hakimiyyətin N.Paşinyan tərəfindən mənimsənilməsi kimi qiymətləndirirlər.

Baş nazir hakimiyyətə gəldikdən sonra demokratiya adı altında həyata keçirdiyi siyasi təqiblərdən istifadə edərək siyasi və ictimai xadimləri zərərsizləşdirməyə çalışıb. Hazırda Cənubi Qafqaz regionunda koronavirus pandemiyası ilə bağlı ən pis vəziyyət Ermənistanda hökm sürür. Ermənistanın müxalifət partiyaları, eyni zamanda ictimai təşkilatlar hökumətin bu sahədə həyata keçirdiyi tədbirlərin qeyri-effektiv olduğunu və vəziyyətin tamamilə nəzarətdən çıxdığını bəyan edərək hökuməti istefa verməyə çağırırlar. Bu, beynəlxalq ictimaiyyəti də narahat etməli olan bir vəziyyətdir. Hazırda Ermənistandakı Amerika səfirliyi və Avropa İttifaqının nümayəndəliyi qarşısında aktivist qrupların etirazları davam edir. Onlar siyasi müxalifətlə əlaqəli olan yüzlərlə insanın həbsinə və son dövrlərdə çirkli pulların yuyulmasına və beynəlxalq qanunsuz ticarətə dair hazırkı hökumətin fəaliyyətinə etiraz edirlər. Nəhayət, Avropa Xalqlar Partiyasının sədri Donald Tusk Ermənistanda baş verən hadisələrdən narahatlığını ifadə edərək Ermənistan hökumətini müxalifətə qarşı qanunsuz təzyiqləri dayandırmağa çağırıb".

Müvafiq keçid linki:

http://www.opinione.it/esteri/2020/06/23/domenico-letizia_armenia-pandemia-persecuzioni-pashinyan-hakobyan-vaticano-sargsyan/

# Sədərək rayonundakı yeni binada hərbçi ailələrinə xidməti mənzillər təqdim edilib

Muxtar respublikada ordu, birləşmə və hissələrin döyüş qabiliyyəti və maddi-texniki bazası gücləndirilməklə yanaşı, hərbi qulluqçuların mənzil-məişət şəraitinin yaxşılaşdırılması da diqqətdə saxlanılır.



Əlahiddə Ümumqoşun Ordunun Mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, 26 İyun - Silahlı Qüvvələr Günü ərəfəsində Sədərək rayonundakı 7 mərtəbəli yeni binada hərbçi ailələrinə xidməti mənzillərin təqdim edilməsi növbəti qayğının ifadəsi və xalq-ordu birliyinin təcəssümüdür. "NEQSOL Holdinq" şirkətlər qrupu tərəfindən alınaraq hərbçi ailələrinə hədiyyə edilən mənzillər lazımi məişət şəraitinə malikdir.

Hərbçi ailələrinə xidməti mənzillərin təqdim edilməsi mərasimində Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov çıxış edərək bildirib ki, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə geniş quruculuq işləri aparılan rayonda təhsil və səhiyyə müəssisələri, inzibati və yaşayış binaları, sənaye müəssisələri tikilib, məşğulluq təmin edilib, yeni içməli su və kanalizasiya sistemləri qurulub. Bu gün hərbçi ailələrinə yeni xidməti mənzillərin təqdim edilməsi Sədərək rayonunun sosial-iqtisadi inkişafının, məskunlaşmanın artmasının və xalq-ordu birliyinin təcəssümüdür.

"NEQSOL Holdinq" şirkətlər qrupunun nümayəndəsi Samir Mollayev çıxış edərək, holdinqin rəhbəri Nəsib Həsənovun anadan olduğu Sədərək rayonunun müdafiəsində ayıq-sayıq dayanan hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılmasında payı olmağından qürurlandığını bildirib. O, yeni mənzillərdə yaşayacaq hərbi qulluqçuları və onların ailə üzvlərini təbrik edərək xidmətlərində uğurlar arzulayıb.

Tədbirdə xidməti mənzillərin orderləri Əlahiddə Ümumqoşun Ordu komandanlığına və açarları hərbi qulluqçulara təqdim edilib.

Əlahiddə Ümumqoşun Ordu komandanının müavini, general-mayor Teymur Eyyubov qeyd edib ki, bu gün Ümummilli Liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi ordu quruculuğu siyasətinin uğurla davam etdirilməsi nəticəsində doğma Naxçıvanımız güclü müdafiə qüdrətinə və müzəffər Əlahiddə Ümumqoşun Orduya malikdir. Sədərək rayonunda yeni torpaq sahələrinin ordumuzun nəzarətinə keçməsi və həmin ərazilərin minalardan təmizlənərək əkin dövriyyəsinə qatılması bunu bir daha təsdiq edir.

Mənzillə təmin olunmuş zabit Ələsgər Mehdiyev deyib: "Zabit-gizir ailələrinin sosial müdafiəsinin gücləndirilməsi dövlətimizin öz ordusuna, hərbi qulluqçulara və ailələrinə göstərdiyi qayğının daha bir ifadəsi, dövlət-xalq-ordu birliyinin nəticəsidir. Söz veririk ki, göstərilən diqqət və qayğını öz xidmətimizlə doğruldacağıq".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatı Qadınlar Şurasının sədri Vüsalə Əliyeva hərbçi ailələrini təbrik edərək bildirib ki, bu gün hər bir vətəndaşımız sabitlik şəraitində rahat yaşayır, ordumuza güvənərək öz gündəlik fəaliyyəti ilə məşğul olur. Dövlətimiz tərəfindən hərbçi ailələrinin rahat yaşayışının təmin olunması istiqamətində zəruri tədbirlər görülür. Sədərək rayonunda xidmət edən hərbçilərin ailələrinə təqdim edilən mənzillər də dövlət-xalq-ordu birliyinin növbəti nümunəsidir.

Sonra mənzillərə baxış olub. Məlumat verilib ki, 7 mərtəbəli yeni binada hərbçi ailələrinə təqdim edilən mənzillərin hər biri ikiotaqlıdır və ümumi sahəsi 63 və 75 kvadratmetrdir. Burada bütün kommunal-məişət şəraiti yaradılıb, 2 lift, mərkəzləşdirilmiş antena və fərdi istilik sistemləri quraşdırılıb. Mənzillər müasir mebel dəstləri və bütün növ məişət əşyaları ilə tam təmin olunub.

# Ermənistan Paşinyanı uğursuzluqda ittiham edir

## Hakimiyyət Qaqik Tsarukyanın həbsində israrlıdır

***Əvvəli 1-ci səh.***

Baş verənləri şərh edən Ermənistanın "Politekonomia" tədqiqat institutunun direktoru Andranik Tevanyan qeyd edir: "Koronavirus Paşinyanın çox xoşuna gəlib. Pandemiya şəraitində o, fövqəladə vəziyyət elan edib, lakin virusun yayılmasına qarşı fövqəladə addımlara getmək üçün yox, öz hakimiyyətini genişləndirmək və insanların hüquqlarını məhdudlaşdırmaq üçün bu vəziyyəti elan edib".

Tevanyan qeyd edib ki, Nikol Paşinyan bir tərəfdən qanunsuz addımlara gedir, ancaq digər tərəfdən bu addımların qurbanlarına öz hüquqları üçün mübarizə aparmağı qadağan edir: "Paşinyanın Konstitusiya Məhkəməsini ələ keçirmək proqramı həyata keçirilsə, Ermənistanda xunta rejimi buradan irəli gələn bütün nəticələrlə qurulacaq. Paşinyan öz komanda yoldaşlarını növbəti dəfə kollektiv cinayətə təhrik edir".

"Qraparak" nəşri isə yazır: "Paşinyan Ermənistan sakinlərinin iradəsinə tabe olan siyasi qüvvələrlə nə etmək lazım olduğuna dair yaxşı bir fikir söylədi. Onun fikrincə, həmin qüvvənin başından tutub kənara atmaq lazımdır. Bu fikri çox bəyəndik, çünki hakim siyasi qüvvə ilə nə edilə biləcəyini uzun müddət düşünürdük və nə edəcəyini bilmirdik. İndi bilirik ki, bu qüvvəni tutmalı və onu kənara atmalısan. Qüvvənin başında kimin olduğunu bilirsiniz, elə deyilmi? Kimdir? Bəli, bu qüvvənin lideri, indiki halda Nikoldur. Nikolun başını tutmaq lazımdır, çünki onun təlimatı və əmri ilə "Mənim addımım" adlanan qüvvə artıq 2 ildir ki, təkcə Ermənistan sakinlərinin iradəsini deyil, digər hüquqlarını da ələ keçirir".

Vurğulanır ki, Paşinyanın rəhbərlik etdiyi siyasi qüvvənin sui-istifadə halları, axmaqlıqları yuxarıda göstərilənlərlə bitmir. Bu gün Konstitusiyada Paşinyanın göstəriş və sərəncamları ilə pozmadığı bir müddəa tapmaq çətindir. Paşinyan müasir dünyada ölkəsindəki məhkəmələri mühasirəyə alan, hökmləri zorla dəyişdirən, kobud qanun pozuntuları ilə kadr siyasəti aparan, bir çox inqilabdan əvvəl oliqarxlarla oğurluq əlaqələri quran və onları "vicdanlı iş adamları" adlandıran yeganə liderdir. Hətta bu gün o, "ödəmək" istəməyən varlı insanları cəzalandırmağa, vəzifəsindən istifadə edərək ailənin qohumları vasitəsilə korrupsiya işləri həyata keçirməyə, milyardlarla dollarlıq vergidən yayınmağa çalışır.

Bildirilir ki, sosial müdafiə naziri ilə sıx əməkdaşlıq edərək ən ehtiyaclı vətəndaşların müavinətlərindən sui-istifadə edilib, vicdanlı vergi ödəyicilərindən oğurlanan pullarla deputat və nazirlərə astronomik maaş və mükafatlar paylanıb, minlərlə iş yeri bağlanıb, yoxsulluq təhlükəli həddə çatıb, ölkənin və vətəndaşların təhlükəsizliyi yeni çağırışlara üzbəüz qoyulub.

Bütün bunlar Ermənistanda mövcud hakimiyyətdən narazılığı daha da dərinləşdirib.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Beynəlxalq aləm



## ABŞ və Çin arasında ticarət sazişi qüvvəsində qalır

ABŞ Prezidenti Donald Tramp Amerika Birləşmiş Ştatları və Çin arasında əldə olunmuş ticarət sazişinin qüvvədən düşdüyü barədə məlumatları təkzib edib.

Bu barədə Trampın “Twitter” səhifəsində xəbər verilir. “Çinlə ticarət sazişi tam qüvvədədir. Ümid edirəm ki, Pekin sazişin şərtlərini yerinə yetirməyə davam edəcək”, - deyə ABŞ Prezidenti yazıb.

Bir müddət öncə Ağ evin yanında Ticarət üzrə Milli Şuranın rəhbəri Piter Navarro “Fox News Channel” telekanalına müsahibəsində Trampın Çinlə ticarət sazişinin fəaliyyətini dayandırmaq niyyətində olduğunu deyib. Sonradan “Bloomberg” agentliyi Navarronun sözlərinin kontekstdən çıxarıldığı barədə bəyanatını dərc edib. “Sözlərim kontekstdən çıxarılıb. Onlar ticarət sazişinin qüvvədə qalacaq birinci fazasına aid deyildi”, - deyə qurumun rəhbəri bildirib.

Xatırladaq ki, yanvarın 15-də Vaşinqtonda iki ölkə arasında ticarət sövdələşməsinin ilk fazası üzrə saziş əldə olunub. Sənədi ABŞ Prezidenti Donald Tramp və ÇXR Dövlət Şurası Sədrinin müavini Lü He imzalayıblar.

## Həcc ziyarəti ləğv olundu



Bu il Həcc ziyarətinin ləğv olunması ilə bağlı Səudiyyə Ərəbistanından rəsmi bildiriş gəlib. Bu barədə Qafqaz Müsəlmanları İdarəsindən məlumat verilib.

Qeyd olunub ki, bu səbəbdən Azərbaycandan Həcc ziyarətinə sənəd qəbulu da ləğv edilib.

Səudiyyə Ərəbistanının Həcc və Ümrə Nazirliyi müsəlmanların müqəddəs Həcc ziyarəti ilə əlaqədar qərarı açıqlayıb. Krallığın müasir tarixində ilk dəfə olaraq ziyarət çox məhdud sayda və Səudiyyə Ərəbistanında olan yerli və əcnəbi zəvvarlar tərəfindən yerinə yetiriləcək. Xarici ölkələrdən Həcc ziyarətinə gələnlər olmayacaq.

Nazirliyin bəyanatında bildirilir: “Səudiyyə Ərəbistanı Həcc və Ümrə ziyarətinə gələn milyonlarla müsəlmana xidmət etməkdən qürur duyur, hər il onların təhlükəsizliyini təmin etmək üçün tədbirlər həyata keçirir. Biz qüdrətli Allaha dua edirik ki, ölkələrimizi pandemiyadan qorusun”.

## Serbiyada fövqəladə vəziyyət elan edildi



Serbiyada leysan yağışlardan sonra çayların daşması nəticəsində ölkənin 7 rayonunda fövqəladə vəziyyət elan edilib.

Yerli KIV-in məlumatına görə, ölkənin qərbində aramsız yağışlar bir neçə gündür davam edir. Bir neçə yaşayış məntəqəsi su altında qalıb. Bir körpü tamamilə dağılıb.

Ətraf qəsəbələrdən 50-yə yaxın sakin təxliyə edilib.

Sinoptiklər bu vəziyyətin bir neçə gün davam edəcəyini proqnozlaşdırır.

## Buşehr AES yenidən fəaliyyətə başlayıb



İranın cənubunda yerləşən Buşehr Atom Elektrik Stansiyası (AES) yenidən ölkənin elektrik şəbəkəsinə qoşulub. TREND-in məlumatına görə, bunu AES-in İstismarı Şirkətinin icraçı direktoru Rza Bənazadə deyib.

R.Bənazadənin sözlərinə görə, stansiyanın reaktorunda olan nüvə yanacağının üçdə biri boşaldılıb və yeni nüvə yanacağı yüklənib. O, əlavə edib ki, koronavirusun yayıldığı müddətdə bir sıra önləyici tədbirlər görüldüyünə görə yerli və xarici podratçı mütəxəssislərdən istifadə etməkdə məhdudiyyətlər yaranmışdı. “Bu məhdudiyyət əslində AES-in İstismarı Şirkətində dəyərli fürsətə çevrildi. Belə ki, şirkətin mütəxəssisləri nəzərdə tutulmuş zaman cədvəli əsasında Atom Elektrik Stansiyasında yanacağın dəyişdirilməsi və başqa təmir işlərini həyata keçirdilər”.

Şirkət rəsmisi deyib ki, Buşehr AES davamlı şəkildə yerli nəzarət qurumları, beynəlxalq dairələr, o cümlədən Atom Enerjisi üzrə Beynəlxalq Agentlik və Atom Operatorları Dünya Assosiasiyasının (World Association of Nuclear Operators) nəzarətindədir.

Buşehr AES aprelin 12-də nüvə yanacağının dəyişdirilməsi məqsədilə fəaliyyətini dayandırıb.

# “Azercell”lilər bir ay ərzində #rəqəmsalgünləri birlikdə qeyd edəcək

**Lider mobil operator yeni brend kimliyinin birinci ildönümü ilə əlaqədar abunəçilərinə yeni rabitə imkanları və bol-bol əyləncə vəd edir**

Düz bir il öncə “Azercell” yenilənərək “rəqəmsal dünyanı” abunəçiləri ilə birgə qurmağa başladı. 2019-cu il iyunun 21-də Heydər Əliyev Mərkəzində dövlət və biznes strukturları, ictimai xadimlər və media nümayəndələrinin iştirakı ilə keçirilən möhtəşəm tədbirdə ilk dəfə olaraq 360 dərəcəlik 3D proyeksiyası nümayiş etdirildi. 300-ə yaxın dron səmada Azərbaycan bayrağı və xəritəsinin, “Azercell”in əvvəlki və yeni loqolarının təsvirini yaradaraq izləyicilərə möhtəşəm şou sərgilədi.




Artıq 5 000 000-dan çox abunəçinin seçimi olan “Azercell Telekom” bu bayramını onlarla birlikdə qeyd etməyi planlaşdırır. Beləliklə, bu ay ərzində şirkət abunəçilərini yeni cəlbedici kampaniyalar, faydalı və əyləncəli tətbiqlərə pulsuz abunə, eləcə də “Azercell”in sosial şəbəkə kanalları vasitəsilə keçiriləcək müxtəlif oyunlar, yarışmalar, müsabiqələrdə iştirak edib hədiyyə qazanmaq şansı və qiymətli rəqəmsal hədiyyələr gözləyir.

Ölkənin lider mobil operatoru “Azercell Telekom” ötən il bütün Azərbaycanı yeni bağlantı erasına hazırlamağı vəd edərək yeni brend kimliyini, onun ifadəsində isə yeni fəlsəfəsini cəmiyyətə təqdim etdi. Yeni nəsil rəqəmsal həllər vasitəsilə istifadəçilərinə dünyanın sonsuz imkanlarını əlçatan etməyi vəd edən “Azercell” müasir texnologiyaların tətbiqi ilə onların həyatlarını əsaslı şəkildə dəyişəcəyini bəyan etdi. Beləliklə, “Azercell”in çevikliyi və yenilikçi ruhunun rəmzi olacaq, keçmişlə gələcək arasında bir bağ yaradaraq hərəkət və inkişafı təcəssüm etdirəcək yeni nişanı şirkət tarixində yeni eranın başladığının əksinə çevrildi.

Beləcə, öz vədinə sadiq qalaraq cəmiyyətin rəqəmsallaşmasına doğru ən əhəmiyyətli addımlarından biri kimi 2019-cu ilin noyabrında “Azercell”in ölkədə və Cənubi Qafqazda ilk 5G pilot şəbəkəsini istifadəyə verdi. 5G şəbəkəsinin operator tərəfindən ən birinci və ən tez sınaqdan keçirilməsi, eləcə də texniki yenilənməsi “Azercell”i dünyanın qabaqcıl mobil rabitə təminatçıları ilə bir sırada qərarlaşdırır.

“Azercell” şirkəti abunəçilərinin istifadəsinə daha müasir dizayna malik olan “Kabinetim” şəxsi kabinet xidmətini təqdim etdi. Ölkədə ilk dəfə olaraq “Kabinetim” tətbiqi üzərindən rabitə, kommunal və digər məişət ehtiyaclarını ödəyə biləcək “Mobil Ödəmə” xidmətini istifadəyə verdi.

Smartfonlar vasitəsilə rəqəmsal xidmətlərə doğan tələbatdan irəli gələrək “Azercell” ötən ildə əyləncə və səmərəli istifadə üçün geniş çeşiddə rəqəmsal xidmətlərini: ivi, Zvuk, Azercell Kids, Bookmate, NNTV mobil TV, BluTV və Busuu kimi mobil tətbiqlərini abunəçilərinə təqdim etdi.

Sosial layihələrini artıq rəqəmsal ifadəsində cəmiyyətə təqdim edən “Azercell”in beynəlxalq “Bookmate” proqramına 650 illiyi qeyd olunan şair-mütəfəkkir İmadəddin Nəsiminin qəzəllərinin 3 dildə audiokitab formatında yerləşdirilməsi isə şirkətin Azərbaycan mədəniyyətinin təbliği və “2019 Nəsimi ili” layihəsinə böyük töhfəsi oldu.

Uşaqların və uşaq hüquqlarının müdafiəsi istiqamətində fəallığı ilə seçilən “Azercell” onların rəqəmsal mühitdə qorunması təşəbbüsü ilə ötən il “Rəqəmsal vətəndaşlıq və internet təhlükəsizliyi” mövzusunda ölkənin müxtəlif bölgələrində şagirdlər, valideynlər və müəllimlər üçün xüsusi çoxsaylı təlimlər təşkil etdi.

“Azercell”in hamı üçün əlçatan etməyi qarşısına məqsəd qoyduğu rabitə imkanları cəmiyyətdə yaşanılan daha mürəkkəb və kritik zamanlarda belə əhəmiyyətli sosial qayğı kimi operativ şəkildə köməyə gəldi.

“Azercell” dünyanın qlobal təhlükəsi olan COVID-19 pandemiyası ilə mübarizə və sosial təcrid şəraitində həm abunəçilərinə, həm də əhalinin ayrı-ayrı təbəqələrinə dəstək göstərdi: karantin şəraitinin ilk günlərindən ölkə xaricində olan vətəndaşlara 50 AZN həcmində rabitə dəstəyi; TƏBİB-lə pulsuz əlaqə qurmaq imkanının yaradılması; 65 yaşdan yuxarı vətəndaşlar üçün təmənnasız səyyar müştəri xidmətləri; pandemiya ilə mübarizə aparan həkim və tibb işçilərinə 50 AZN həcmində rabitə dəstəyi; “Virtual Məktəb” portalı üzərindən çalışan müəllimlərə mobil internet balansının artırılması; onlayn təhsil alan tələbələrə rabitə dəstəyi; minlərlə aztəminatlı ailəyə ərzaq məhsullarının paylanması; əlavə xidmətlər və mobil tətbiqlər üçün endirimlər və digər növ yardımlar.

“Azercell” bütün zamanlarda öz abunəçilərinə xidmət etməyə hazırdır və hər kəsi rəqəmsal bayramına qoşulmağa çağırır.

***“Azercell”in rəqəmsal günlərində hədiyyəsiz qalma!***

## “Böhranlar və feyk xəbərlərin yayılması şəraitində faktların dəqiqləşdirilməsi yolları” mövzusuna həsr edilmiş vebinar keçirilib

İyunun 23-də İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin Milli Xəbər Agentlikləri Birliyi (UNA), İƏT-in Baş Katibliyinin İnformasiya-Media İdarəsi və İslam Ölkələri Radioyayım Birliyinin təşkilatçılığı ilə “Böhranlar və feyk xəbərlərin yayılması şəraitində faktların dəqiqləşdirilməsi yolları” mövzusuna həsr edilmiş vebinar keçirilib.

Vebinarda İƏT-ə üzv ölkələrin milli xəbər agentliklərinin və teleradio şirkətlərinin nümayəndələri, eləcə də AZƏRTAC-ın fransız dilində informasiya bölməsinin əməkdaşları, ümumilikdə, İƏT-ə üzv ölkələrdən 100-ə yaxın media işçisi və ekspert iştirak edib.

Mühazirəçi, Tunisin Manuba Universitetinin Mətbuat və İnformasiya Elmləri İnstitutunun dosenti, doktor əs-Sadiq əl-Həmmami feyk xəbərlərdən və onların yayılmasından danışıb, böhranlı vəziyyətlərdə insanların düzgün məlumatlandırılmasında rəsmi xəbər agentliklərinin artan rolunu, jurnalist peşəkarlığının əhəmiyyətini vurğulayıb. Mühazirəçi sosial şəbəkələrdə yayılmış fotovideo informasiyaların həqiqətə nə dərəcədə uyğun olduğunu dəqiqləşdirmək yolları barədə təcrübələri bölüşüb.

Daha sonra tədbir sual-cavab şəklində davam etdirilib. Xatırladaq ki, iyunun 8-də UNA-nın və İƏT-in Baş Katibliyinin İnformasiya-Media İdarəsi tərəfindən ərəb dilində eyni mövzuda keçirilmiş vebinarda AZƏRTAC-ın ərəb dilində informasiya bölməsinin əməkdaşları iştirak etmişdilər.

AZƏRTAC İslam Əməkdaşlıq Təşkilatına üzv 57 ölkənin milli xəbər agentliklərini birləşdirən UNA-nın İcraiyyə Şurasının 12 üzvündən biridir. 1972-ci ildə təsis olunan bu media qurumunun əsas məqsədi İƏT-ə üzv ölkələr arasında informasiya mübadiləsinə yardım göstərmək, İslam dünyasının üzləşdiyi problemlər barədə dünya ictimaiyyətini məlumatlandırmaqdır. UNA üç dildə - ərəb, ingilis və fransız dillərində xəbərlər yayır.

## 1291 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib

Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi iyunun 22-də xüsusi karantin rejiminin pozulmasına görə inzibati məsuliyyətə cəlb edilmiş hərəkət iştirakçılarının sayı və görülən tədbirlər barədə məlumat yayıb.

İdarədən AZƏRTAC-a bildiriblər ki, koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Bakı, Sumqayıt, Gəncə, Lənkəran, Yevlax, Masallı, Cəlilabad şəhərlərinin və Abşeron rayonunun ərazilərində tətbiq edilmiş sərtləşdirilmiş xüsusi karantin rejiminin pozulmasına görə iyunun 22-si saat 00:00-dan iyunun 23-ü saat 00:00-dək olan müddətdə nəqliyyat vasitələri ilə hərəkətdə olan 1029 nəfər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211.1-ci, sərnişindaşımada istifadə olunan taksi və avtobuslarda tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə edilmədiyinə görə isə həmin Məcəllənin 211.2-ci maddəsi ilə 262 nəfər olmaqla, ümumilikdə 1291 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib.

Gün ərzində xüsusi karantin rejimi sərtləşdirilmiş inzibati ərazilərin sərhədlərində yerləşən karantin postlarında aparılan yoxlamalar zamanı 175 nəqliyyat vasitəsi paytaxt, 291-i isə rayon istiqamətinə olmaqla 466 avtomobil geri qaytarılıb. Həmçinin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə axtarışda olan iki nəfər aşkarlanıb.


## “Azərsu” ASC daxili vəsaiti hesabına açıq tender metodu tətbiq edilməklə elektron satınalma vasitəsilə “Azərsu” ASC-nin Nəqliyyat və Xüsusi Texnika İdarəsinin balansında olan texnikaların yüksək təzyiqli yanacaq nasosunun və yanacaq püskürücüsünün təmiri işlərinin satın alınması üzrə

### *açıq tender elan edir*

**“Azərsu” ASC-nin daxili vəsaiti hesabına açıq tender metodu tətbiq edilməklə elektron satınalma vasitəsilə “Azərsu” ASC-nin Nəqliyyat və Xüsusi Texnika İdarəsinin balansında olan texnikaların yüksək təzyiqli yanacaq nasosunun və yanacaq püskürücüsünün təmiri işlərinin satın alınması**

Malgöndərənlər (podratçılar) https://www.etender.gov.az- dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: **Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3 (üç) il üzrə işlərin, mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş müqavilələr. 1 (bir) müqavilə təqdim edildiyi təqdirdə 10 balla, 2 (iki) müqavilə təqdim edildiyi təqdirdə 20 balla, 3 (üç) və yuxarı sayda müqavilə təqdim edildiyi təqdirdə 30 balla qiymətləndiriləcəkdir) və ən aşağı qiymət təklifi.**

Malgöndərənlər (podratçılar) qeyd olunan məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

Tenderdə iştirak haqqı 200 manatdır.

**Təşkilat: “Azərsu” ASC**
**VÖEN: 9900001751**
**Bank: “Kapital Bank”ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. I. F. T. BIK: AIIBAZ2X**
**H/h: AZ65AIIB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **17 iyul 2020-ci il saat 16.00-a** qədər, tender təklifi və bank təminatını isə **27 iyul 2020-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **28 iyul 2020-ci il saat 16:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləckdir.

***Tender komissiyası***



## BİLDİRİŞ

“Azərbaycan” qəzetinin 07 mart 2020-ci il tarixli sayında dərc edilmiş və dövlət satınalmalarının vahid internet Portalında (https://www.etender.gov.az) Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən keçirilən elektron satınalmalarda (eTender) Xırda avadanlıqların satın alınması üzrə “R.İ.S.K. Elmi İstehsalat Şirkəti” Qapalı Səhmdar Cəmiyyəti qalib olmuşdur.

Qalib şirkətlə 23 iyun 2020-ci ildə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***



## BİLDİRİŞ

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən “Yevlax şəhərində Kiçik və Orta Biznesin İnkişafı Mərkəzinin fəaliyyətə başlaması üçün təşkilati işlərin görülməsi, mərkəzdə KOB-lara təlim və seminarların keçirilməsi, habelə məsləhət və dəstək xidmətinin satın alınması” ilə əlaqədar keçirilən tenderin nəticələrinə əsasən, “Yerli İdarəetməyə Yardım İctimai Birliyi” qalib elan edilmişdir. Həmin təşkilatla 18 iyun 2020-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Natiq Əliyevə atası

**AVIL ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Mərkəzi Seçki Komissiyasının sədr müavini Rövzət Qasımova əzizi

**DURNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Akademik Mehdi Mehdizadə adına Cəbrayıl şəhər tam orta məktəbin 1980-ci il buraxılış $X^a$ sinif məzunları sinif yoldaşları

**NAMİQ BAĞDASƏR OĞLU QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Bakı şəhər 4 saylı Vəkil Bürosunun kollektivi iş yoldaşları vəkil Abdulla İsgəndərova anası

**NABAT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Bakı şəhər 4 saylı Vəkil Bürosunun kollektivi iş yoldaşları vəkil Altay Mustafayevə atası

**OQTAY MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakıdan Ramiz İbrahimov ailəsi ilə birlikdə Mustafayevlər ailəsinə əzizləri Azərbaycan Respublikasının Xalq artisti

**TEYMUR AĞAXAN OĞLU MUSTAFAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7376
Sifariş 1609
Qiyməti 40 qəpik